# ULU XUDAFƏRİN

**Araz üstdə Xudafərin körpüsü**
**Qardaşlığın olub təməl hörgüsü**
**Şakir ALBALIYEV**





*Qəzet 2025-ci ildən çıxır* **№ 01-02 (05-06) 20 Yanvar 2026-cı il**


# 20 Yanvar ümumxalq hüzn günüdür



## Dövlət başçısı 20 Yanvar şəhidlərinin xatirəsini yad edib

**Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib.**
**Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.**
**Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.**

***

20 Yanvar hadisələri Azərbaycan xalqının tarixinə həm faciəli, kədərli, həm də qəhrəmanlıq, rəşadət səhifəsi kimi daxil olub, müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilib. 36 il əvvəl doğma Vəteninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən üstün tutan Azərbaycanın mərd övladları həmin qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Həmin gün Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə tarixi səhifə yazdılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur.

Qanlı 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ilə bağlı məsələ ilk dəfə məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin səhəri günü - 1990-cı il yanvarın 21-də Ulu Öndər Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, bu qırğını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi. Dahi şəxsiyyət bu hadisəni hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu bəyan edərək, onun törədilməsini kobud siyasi səhv kimi qiymətləndirdi. Xalqımızın başına gətirilən müsibəti dünyaya çatdıran Ümummilli Lider 20 Yanvar faciəsinin Azərbaycanın ovaxtkı rəhbərlərinin xalqımıza qarşı xəyanəti nəticəsində baş verdiyini və bunun cinayət olduğunu dəfələrlə bəyan edib. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha nümayiş etdirib.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən qərar qəbul olundu. Bu qərar Ulu Öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. Yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü ildə 20 Yanvar hadisələrinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. 20 Yanvar şəhidlərinin ailə üzvlərinin və əlillərinin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Onların pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı qanunvericilik bazası yaradılıb.

Ulu Öndərin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş bütün şəhidlərin ruhları bu gün şaddır. Çünki Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad etdi və suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı qürurla dalğalanır. Hazırda Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri gedir, Böyük Qayıdış Proqramı uğurla icra olunur.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar faciəsi qurbanlarının qanının yerdə qalmadığını sübut edir.

## "Bir şəhidin izi ilə..."

Yanvarın 16-da Cəbrayıl rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Bakıxanov qəsəbəsindəki 12 saylı peşə liseyinin binasında fəaliyyət göstərən Cəmil Əhmədov adına Cəbrayıl şəhər tam orta məktəbində Qaracallı kəndindən olan şəhid baş leytenant, hərbi həkim Allahverdili Hikmət Əsəd oğlunun xatirəsinə həsr olunmuş anım tədbiri keçirildi. Tədbiri giriş sözü ilə məktəbin müəllimi Minə Fətəliyeva açdı İlk sözü RİH başçısının humanitar məsələlər üzrə müavini Fəridə İbayevaya verdi. Fəridə xanım çıxışında rayon icra Hakimiyyətinin başçısı Kamal Həsənovun salamlarını tədbir iştirakçılarına və eyni zamanda tədbirdə iştirak edən şəhidin ailə üzvlərinə çatdırdı. Daha sonra o, bildirdi ki, qəhrəmanlıq Azərbaycan xalqının tarixinin qədim qatlarından günümüzə gəlir, bu gün də həmin qəhrəmanlığımız qazilərimizin, şəhidlərimizin göstərdikləri şücaətlər sayəsində yaşayır. Beləcə, vətənimizin qəhrəman övladları xalqımızın qəhrəmanlıq səhifələrini yazır və yaradır, yaşadırlar. Belə bir qəhrəmanlıq səhifəsinin yaradıcısı da bu gün əziz xatirəsi işığına yığışdığımız şəhid baş leytenant, hərbi həkim Hikmət Əsəd oğlu Allahverdilidir. Fəridə İbayeva çıxışında şəhidin qəhrəmanlıq yolundan, 27 yaşında vətən uğrunda özünü şəhid etməsindən danışdı. Qeyd etdi ki, analar vətəni qorumaq üçün qəhrəman övladlar dünyaya gətirirlər. Vətən uğrunda fədakarlıq göstərənləri isə xalqımız da, dövlətimiz də həmişə layiq olduqları səviyyədə qiymətləndirir, onların adlarını əbədiləşdirir, əməllərini bu günkü və gələcək nəsillərimiz daim qürurla anır, xatirələrini əziz tutub yaşadır.



Deputat köməkçisi Rəşad Quliyev çıxışında deputat Ceyhun Məmmədovun salamlarını çatdırdı, mühüm bir tədbirdə iştirak etdiyi üçün burda iştirak edə bilmədiyini diqqətə çatdırdı. Rəşad müəllim çıxışında onu da qeyd etdi ki, 1-ci Qarabağ müharibəsi şəhidlərinin valideynləri, ailə üzvləri ilə söhbət edərkən, onlar hamısı deyirlər ki, şəhidlərimiz evdə öz ailələrinə vətəni hər şeydən, öz canlarından da üstün tutaraq döyüşlərə, vətənin müdafiəsinə yollandıqlarını bildirirmişlər. Məhz vətəni uğrunda çəkinmədən canını sadağa edən həmin şəhidlərimizdən biri də bu gün hörmətlə xatirəsini yad etdiyimiz şəhid Hikmət Allahverdilidir. Biz şəhidlərimizi xatırlamağa, onların xatirəsini yaşatmağa həmişə borcluyuq. Məktəbin direktoru Sirac müəllim, məktəbin müəllimləri Minə müəllim, Nigar müəllim və başqa bu tədbirin hazırlanmasında əməyi olanlara minnətdarlığımızı bildiririk, - deyə Rəşad müəllim fikirlərini tamamladı.



Yazar-publisist Ramilə Qurbanlı çıxışında qeyd etdi ki, mən şəhid baş leytenant Hikmət Əsəd oğlunun "Kaş yarımçıq qalmayaydı..." başlığı altında gündəlik qeydlərinin əlyazmasını əllərimə alanda elə bil əllərimdən bir od-alov keçdi. Çünki həmin vərəqlərə şəhidimizin əli dəymişdi, nəfəsi toxunmuşdu. Təxminən 10 vərəqlik xatirə dəftərindəki yazını 15 günə həyəcan içində oxuya bildim. Bu təsirlənmələrim əsasında sosial şəbəkədəki yazımı yazıçı Sabir Əhmədovun qızı oxuyub mənə zəng etdi, dedi ki, əvvəlki 2-3 cümləni oxuyub çox təsirləndim, gerisini oxuya bilmədim. Çox təsirli yazmısan. İndi bu tədbirdə də həyəcanımdan danışa bilmirəm. Ancaq bizim borcumuz şəhidlərimizin hünər yolunu gələcək nəslə çatdırmaqdır

Şəhidin döyüşçü yoldaşı Nizami Əhmədov onun vətənpərvər, mərd keyfiyyətlərindən danışıb, oğluna Hikmətin adını qoymaqla ona öz ehtiramını bu cür ifadə etdiyini dedi.



Tədbirdə iştirak edən və gül çələngi gətirən sinif yoldaşlarından Ədalət Seyidəliyev danışdı. Dedi ki, Hikmət ailənin 6-cı övladı olub. Daha sonra Ədalət xatirələrini bölüşüb, onun Azərbaycan Tibb Universitetinə qəbul olmasından, 2-ci kursdan sonra təhsilini Rusiyada - Saratovda davam etdirib hərbi həkim kimi Azərbaycana qayıtmasından, Ağstafa şəhərində işləməsindən söhbət açdı. Daha sonra orta məktəb illərində Hikmətlə çəpər dibi söhbət etmələrindən danışıb, dedi ki indi həmin yer həzin bir xatirə kimi qəlbimi titrədir. Hətta kənd işğaldan azad olunandan sonra həmin söhbət etdikləri yerə gedib orada xeyli susqun xəyala daldığını da kövrək duyğularla dilinə gətirdi

Şəhidin dayısı Kamil müəllimə söz verildi. O, Qaracallı kəndinin ilk şəhidi olanHikmət Allahverdiliyə hərbi hazırlıq fənnindən dərs keçdiyini, onun o dövrdən hərbin sirlərinə maraq göstərməsindən və s. danışıb, bildirdi ki, vətənpərvərlik hər kəsdə öz ailəsindən başlanır.

Cəbrayıl rayon Tarix-diyarşünaslıq muzeyinin direktoru Aytən Fətullayeva qeyd etdi ki, rayonda muzeyimizdə şəhidlərimizin şəxsi əşyalarından ibarət xatirə guşəsi yaradacağıq ki, bu günkü və gələcək nəsillər onların həyat yollarından xəbərdar olsunlar. Şükür ki, şəhidlərimizin qanları yerdə qalmadı, fəxr edirik ki, Qarabağlıyıq, Cəbrayıllıyıq

Şəhidin böyük qardaşı iqtisad elmləri doktoru, professor Qənimət Səfərov dedi ki, Hikmət mənim üçün təkcə qardaşım yox, həm də böyük övladım kimi idi. O, hərbi tibb fakültəsini bitirmişdi, çox vətənpərvər idi. O, iki dəfə and içmişdi, bir dəfə hərbi and, ikinci dəfə həkim andı - Hippokrat andı. O, deyirdi ki, mən həkim andını pozub, döyüşlərdə insana güllə atmışam, düşməni öldürmüşəm. Sanki şəhid olacağını hiss edirdi. Həmişə özünü döyüşün ən qızğın nöqtələrinə verərdi.

Qənimət müəllim icra hakimiyyətinə, məktəb kollektivinə, iştirakçılara minnətdarlığını ifadə etdi.

Şəhidin bacısı olan C.Əhmədov adına Cəbrayıl şəhər tam orta məktəbin ibtidai sinif müəllimi Kifayət Allahverdiyeva qardaşının mərdliyi, vətənpərvərliyi və s. keyfiyyətlərilə bağlı danışıb, xatirələrini bölüşdü. Çıxışının sonunda bu tədbiri keçirmək üçün onlara yer vermiş 12 saylı peşə məktəbinin rəhbərliyinə, tədbirin təşkilatçılarına, iştirakçılarına minnətdarlıq etdi.

Məktəbin şagirdlərinin ifasında şəhidin həyatından səhnəcik göstərildi, həyat yolundan fraqmentlər səsləndirildi, vətənpərvərlik ruhlu mahnı və şeirlər ifa olundu.

Tədbirdə hərbi vətənpərvərliklə bağlı ictimai birliyin üzvləri Səbuhi Hüseynov, İxtiyar Hüseynov, Səməd Atakişiyev, Dürdanə Qaraşova və başqaları da şəhidin xatirəsi işığında fikirlərini bölüşdülər.

Sonda məktəbin direktoru Sirac Sevindik oğlu Sadıqov çıxış etdi, belə tədbirlərin daim keçiriləcəyini və şəhidlərin örnək həyat yolunu şagirdlərə, bir sözlə, gələcək nəslə tanıdıb-təbliğ edəcəklərini qeyd etdi.

**Şakir Albalıyev**

# Cəbrayıl rayonunda 2026-cı ilin ilk səyyar görüş-qəbulu keçirilib



**16 yanvar 2026-cı il tarixdə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov 2026-cı ilin ilk səyyar görüş-qəbulunu Şirvan şəhəri, məcburi köçkünlər üçün salınmış şəhərcikdə keçirib. Qəbulda RİH başçısı aparatının məsul əməkdaşları və rayon sakinləri iştirak ediblər.**

Səyyar qəbulda "Böyük Qayıdışa dair Dövlət Proqramı"na əsasən əhalimizin öz doğma torpaqlarına köçürülməsi, həmçinin ötən il sosial-iqtisadi sahədə əldə edilmiş nailiyyətlər barədə danışan Rayon İcra Hakimiyyətinin başçısı vətəndaşlara göstərilən sosial xidmətlər, insanların rifah halının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən görülən işlərin cari ildə də davam etdiriləcəyini diqqətə çatdırıb.

Görüş zamanı rayon sakinləri onları narahat edən məsələlərlə bağlı suallarını səsləndiriblər. Görüşdə vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bəziləri yerindəcə həll edilib, digərləri isə nəzarətə götürülüb. Qəbulda iştirak edən rayon əhalisi problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Qəhrəmanlı kəndində səyyar görüş-qəbul keçirilib

**18 dekabr 2025-ci il tarixdə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Beyləqan rayonu, Qəhrəmanlı kəndində fəaliyyət göstərən rayonun Dağ Tumas kənd tam orta məktəbində səyyar görüş-qəbul keçirib. Qəbulda RİH başçısı aparatının məsul əməkdaşları və ərazidə məskunlaşan rayon əhalisi iştirak edib.**







Səyyar görüş-qəbulda rayon rəhbəri çıxış edərək son illərdə respublikamızın sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində görülən tədbirlər, həyata keçirilən sosial layihələr barədə sakinlərə məlumat verib. Daha sonra qəbulda iştirak edən sakinləri dinləyərək qaldırdıqları problemlərin həll olunması üçün müvafiq tapşırıqlar verib, həlli vaxt tələb edən məsələlərlə bağlı isə aidiyyəti orqanlara müraciət edilməsi nəzərdə tutulub.

Qəbulda iştirak edən sakinlər əhalinin problemlərinin həll edilməsi məqsədilə yerlərdə həyata keçirilən tədbirlərə, göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Horovlu kənd sakinlərinin doğma yurdlarına qayıdışı davam edir



**24 dekabr 2025-ci il tarixdə Bakı şəhərindən 9 ailə 37 sakin, Abşeron rayonundan 2 ailə 9 sakin, Biləsuvar rayonu ərazisində salınmış Cəbrayıl qəsəbələrindən 5 ailə 18 sakin, Sumqayıt şəhərindən 2 ailə 4 sakin və Şirvan şəhərindən 1 ailə 2 sakin olmaqla ümumillikdə 19 ailə 70 sakin növbəti köç karvanında Horovlu kəndinə yola salınıb.**

Xatırladaq ki, bu günədək Horovlu kəndinə Respublikamızın müxtəlf bölgələrində məskunlaşmış 191 ailə, 762 rayon sakini köçürülmüşdür.



## Şəhidlər Xiyabanında və Şəhidlər abidə kompleksində abadlıq-təmizlik işləri aparılıb



**20 yanvar faciəsinin otuz altıncı ildönümü ilə əlaqədar "Şəhidlər" Abidə Kompleksində, "Şəhidlər Xiyabanı"nda və qəsəbə ərazisində ucaldılmış şəhidlərin xatirə lövhələri ətrafında abadlıq-təmizlik işləri aparılıb.**

# Cəbrayıl rayonunda şair-publisist İsmayıl İmanzadənin 80 illik yubileyi keçirilib



**23 dekabr 2025-ci il tarixdə çağdaş Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan, dövrümüzün məhsuldar, istedadlı, yaradıcı, şair-publisisti, həmyerlimiz 1995-ci ildən Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər Birliklərinin üzvü, İsmayıl Səlim oğlu İmanzadənin 80 illik yubileyi keçirilib. Tədbirdə Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva, yaradıcı ziyalılar - Hidayət Səfərli, Mirzə Mirimli, Musa Aslanxanlı, Əbülfət Alışov, Kamal Fərhad, Ülfət Həsənov, mədəniyyət işçiləri, məktəblilər, doğmaları və şairsevərlər iştirak ediblər.**

əmək sərf edərək, ölkənin müxtəlif bölgələrindən olan yazarları başına toplayıb Mingəçevir ədəbi mühitinin formalaşmasına da öz töhfələrini verib. Azərbaycan Yazıçılar Birliyinin Mingəçevir Bölməsini qurub və 1999-cu ilin oktyabr ayından isə Yazıçılar Birliyi Mingəçevir bölməsinə sədrlik edir. İsmayıl İmanzadənin poeziyası kövrək notlar üstə bəstələnib. Əsas mövzusu Qarabağ dərdi, bütöv Azərbaycan, baş qəhrəmanı isə insan olan şairin ədəbi-ictimai fəaliyyəti kimi, yaradıcılığı da dərin və əhatəli, məzmunu sadə və düşündürücüdür. Azərbaycan poeziyasında özünəməxsus yer tutur, öz yeri, öz çəkisi var. Həyatımıza, düşüncələrimizə yeniliklər gətirmiş tarixi Zəfərimizin ab-havası içərisindəki yurd həsrətini, vətən məhəbbətini özü ilə böyüdən ixtiyar şairimizin poeziyasına da nikbin ruh, qürur dolu misralar, doğma yurda qayıtmaq sevinci bəxş edib. Hər zaman çeşidli mətbuat səhifələrində yer alan yazıları, o cümlədən ədəbi yaradıcılığını əks etdirən poetik nümunələri bu gün də oxucuları tərəfindən sevilir.



Çıxış edənlər 80 illik yubileyi münasibətilə şairi təbrik edərək poeziyada tutduğu mövqedən, yaradıcılıq xüsusiyyətlərindən geniş söhbət açıblar. Bildirilib ki, vaxtilə Cəbrayıl rayonunda fəaliyyət göstərən "Ümid" Ədəbi Birliyinə rəhbərlik edən İsmayıl İmanzadə məlum hadisələrlə bağlı 1993-cü ildən sonra klassik və çağdaş Azərbaycan ədəbiyyatının təbliği, istedadlı söz adamlarının tanınması naminə böyük

Tədbirdə yubliyara həsr olunmuş şeirlər, yaradıcılığından parçalar səsləndirilib və sözlərinə bəstələnmiş mahnılar dinlənilib.

# Alimlə doğma məktəbində görüş






**Cəbrayıl rayonu Azərbaycan ictimaiyyətinə kifayət qədər ziyalılar, alimlər bəxş edib. Onlardan biri də dilçi-türkoloq, filologiya elmləri doktoru, professor, AMEA-nın İ.Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin müdiri İsmayıl Babaş oğlu Kazımovdur. İ.Kazımov 1 oktyabr 1955-ci ildə rayonumuzun Soltanlı kəndində anadan olmuşdur. Bu günlərdə alimin 70 yaşı tamam oldu.**

Rayon ziyalılarına daim diqqət və qayğı ilə yanaşan Cəbrayıl rayon İcra Hakimiyyəti və YAP rayon təşkilatı 27 noyabrda professor İsmayıl Kazımovun 70 illik yubileyi münasibətilə möhtəşəm tədbir keçirdi. Qaradağ rayonundakı Qobu yaşayış kompleksində fəaliyyət göstərən Dirili Qurbani adına Soltanlı kənd orta məktəbində baş tutan yubiley tədbirində respublikamızın və rayonumuzun görkəmli ziyalıları iştirak edirdilər. Alimin bir vaxtlarda Cəbrayıl rayonunun Soltanlı kəndində bitirdiyi orta məktəbin kollektivi ilə keçirilən görüş olduqca mütəəssiredici ovqat bağışlayırdı.

Tədbiri giriş sözü ilə Cəbrayıl RİH başçısının humanitar məsələlər üzrə müavini Fəridə İbayeva açdı. O, Rayon rəhbəri Kamal Həsənovun təbrik və salamlarını tədbir iştirakçılarına çatdırdı. Müəyyən səbəblərə görə özünün tədbirdə iştirak edə bilmədiyini qeyd edib, Rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanını alqış sədaları altında yubilyara təqdim etdi. Daha sonra tədbirin aparıcılığını filologiya üzrə fəlsəfə doktoru Aytən Qurbanovaya verdi.

Yeni Azərbaycan Partiyasının Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyevə söz verildi. Arif müəllim çıxışında Yubilyara təbrik dolu sözlərini ünvanladı. Azərbaycan dilçiliyi, türkologiyası istiqamətində professor İsmayıl Kazımovun xidmətlərindən böyük qürur hissi ilə söhbət açdı. Akademik Tofiq Hacıyev, professor Qəzənfər Kazımov kimi nəhəng dilçi alimlərin cərgəsində Soltanlı kəndinin yetirməsi olaraq İsmayıl müəllimin də özünəməxsus yeri olduğundan danışdı.

Yubilyarın həyat və yaradıcılıq yolu haqqında məlumat vermək üçün - məruzə etmək üçün söz bu sətirlərin müəllifinə - yəni filologiya elmləri doktoru Şakir Əlifoğluna verildi.

AMEA Dilçilik İnstitutunun baş direktoru professor Nadir Məmmədli çıxışında İsmayıl müəllimin geniş və əhatəli elmi yaradıcılığından danışdı, məşhəti, ahısqa türklərinin dillərinin, eləcə də azsaylı türk xalqlarının dillərinin araşdırılması istiqamətindəki fəaliyyətindən söhbət açdı. Bakı Dövlət Universitetinin professoru Rüfət Rüstəmzadə bir el məsəlini diqqətə çəkib dedi ki, görünən dağa nə bələdçi! Bu mənada professor İsmayıl Kazımovun dilçilik elmindəki fəaliyyətini görünən dağa bənzətdi, alimin dilçilik elmi, türkologiya sahəsindəki xidmətlərindən söz açdı.

Yazıçı Azad Qaradərəli çıxışında tələbəlik illərinin dostluğundan ta bu günə qədərki dövrədək İsmayıl Kazımovun insani keyfiyyətlərindən və alimlik mövqeyindən ətraflı bəhs etdi. Özünün çapa hazırlanan 20 cildliyinin 11-ci cildinə İsmayıl müəllimin dəyərli ön söz yazdığını da diqqətə çəkdi. Cəbrayılın sevimli torpaq olduğunu və dəyərli ziyalıları ilə tanındığını qeyd etdi.

"Kredo" qəzetinin baş redaktoru, şair-publisist Əlirza Xələfli çıxışını şeirlə başladı. Sonra üzünü yubilyara tutub dedi ki, sən xoşbəxtlik bürcü altında doğulmusan. Hər şeydən doymaq olsa da, sevgidən doymaq olmaz. Sənin elmə olan sevgin, zəhmətin səni bu mərtəbəyə gətirib çıxarıb, sənin xidmətlərini cəmiyyət görür, qiymət verir və bu, böyük xoşbəxtlikdir, ictimai dəyərin heç nə ilə əvəz olunmaz qiyməti var.

Türk dünyasının 4 böyük sütunu var: "Divani-lüğət-it-türk", Balasaqunlu Yusifin "Qutadqu bilik" əsəri, "Manas" və "Kitabi-Dədə Qorqud". İsmayıl Kazımovun da türk dünyası üçün, dilimiz üçün çox mühüm xidmətləri vardır. O, ölmüş türk tayfaları və ölməkdə olan türk tayfaları haqda yazdı - tədqiqatlar apardı. Lakin İsmayıl Kazımovun bir əvəzsiz yetirməsi var ki, o da onun oğlu Cahiddir ki, o da "Divani-lüğət-it-türk"ün tədqiqatçısı kimi gənc türkoloqdur. Mən onu İsmayıl Kazımovun əsəri sayıram və yaxşı övlad hər kəsin, cəmiyyətin övladıdır.

AMEA-nın Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri professor Sayalı Sadıqova çıxışında İsmayıl Kazımovun yarımçıq cümlədən mətn dilçiliyinədək olan elmi yaradıcılıq yolunun xarakterizəsini verdi. Onun 15-dən çox ixtisaslı kadr hazırladığını, yaxşı pedaqoq kimi gəncləri elm yoluna apardığını qeyd etdi. Sonda növbəti yubileyinin doğma Cəbrayıl torpağında keçirilməsini arzuladı.

Rayon Təhsil şöbəsinin müdiri Zamiq Qurbanov, məktəbin direktoru Habil Əliyev, Milli Qəhrəman Vahid Quliyev,İsmayıl müəllimin şöbə əməkdaşları olan filologiya üzrə fəlsəfə doktorları Dilbər Camali, Şəkər Orucova, Elçin İsmayılov, Günel Mirzəyeva və başqaları tədbirdə Yubilyarın ünvanına xoş sözlər söylədilər.

7-ci sinif şagirdi, muğam ifaçısı Rüfət Axundovun ifasında "Bayatı-Şiraz" təsnifi dinlənildi, məktəblilər türkoloq - dilçi alimə suallar ünvanladılar.

Sonda professor İsmayıl Kazımov tədbirintəşkilatçılarına - rayon İcra Hakimiyyətinə, YAP rayon təşkilatına, rayon Təhsil şöbəsinə və məktəbin rəhbərliyinə, iştirakçılara təşəkkürlərini bildirdi.

**Şakir ƏLİFOĞLU**

# Professorun 70 illik yubileyi Qubada qeyd edilib

**25 dekabr 2025-ci il tarixində Azərbaycan Dövlət Pedaqoji Universitetin Quba filialında tanınmış dilçi-alim, türkoloq, filologiya elmləri doktoru, professor İsmayıl Kazımovun 70 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.**







Açılış nitqi ilə çıxış edən filialın direktoru professor Yusif Alıyev qeyd edib ki, bu gün burada Azərbaycan dilçilik elminin inkişafında müstəsna xidmətləri olan, ömrünü elmə, ana dilimizin tədqiqinə və təbliğinə həsr etmiş görkəmli alim - professor İsmayıl Kazımov haqqında danışmaq mənim üçün böyük şərəfdir.

Professor İsmayıl Kazımov təkcə filologiya elmləri doktoru, tanınmış türkologiya mütəxəssisi deyil, eyni zamanda elmi düşüncəsi, prinsipial mövqeyi və zəhmətkeşliyi ilə bir alim məktəbi formalaşdırmış şəxsiyyətdir. Onun araşdırmaları Azərbaycan dilçiliyinin nəzəri əsaslarının möhkəmləndirilməsində, türk dillərinin müqayisəli şəkildə öyrənilməsində və xüsusilə müasir dil problemlərinin elmi həllində mühüm rol oynamışdır.



İsmayıl müəllimin elmi yaradıcılığı geniş və çoxşaxəlidir. Oğuz qrupu türk dilləri, sintaksis, funksional morfologiya, Ahıska türklərinin dili və folkloru ilə bağlı apardığı tədqiqatlar bu gün də öz aktuallığını qoruyur və gənc tədqiqatçılar üçün etibarlı mənbə rolunu oynayır. Onun qələmə aldığı monoqrafiyalar və akademik qrammatika layihələri Azərbaycan dilçilik elminin fundamental əsərləri sırasındadır.

Xüsusilə vurğulamaq lazımdır ki, professor İsmayıl Kazımov elmi fəaliyyəti ilə yanaşı, ana dilimizin taleyinə biganə qalmayan ziyalı mövqeyi ilə də seçilir. O, Azərbaycan dilinin elmi əsaslarla inkişaf etdirilməsini, yeni dövrün tələblərinə cavab verən qrammatik sistemlərin yaradılmasını daim ön plana çəkmiş, bu istiqamətdə ardıcıl mövqe sərgiləmişdir.

Tədbir dosent Gülşən Ağabəyin moderatorluğu ilə davam edib. Dos. Gülşən Ağabəy qeyd edib ki, İsmayıl Kazımov həm də müəllimdir - öz biliyini səxavətlə bölüşən, gənc alimlərin formalaşmasına dəstək olan, elmdə dürüstlüyü və məsuliyyəti aşılayan bir müəllim. Onun yetirmələri bu gün müxtəlif elm və təhsil ocaqlarında uğurla fəaliyyət göstərirlər ki, bu da alimin ən böyük mənəvi nailiyyətlərindən biridir.

G.Ağabəy çıxışında alimin elm sahəsi ilə yanaşı, rayonun ictimai-siyasi həyatında böyük xidmətləri olduğunu da vurğulayıb.

Tədbirdə çıxış edən Cəbrayıl RİH məsul əməkdaşı Mahir Səfərov, Folklor İnstitutunun əməkdaşı filologiya elmləri doktoru Şakir Albalıyev, f.ü.f.d, türkoloq, baş müəllim, AJB-nin üzvü Aytən Qurbanova, filialın professor və müəllim kollektivi, Filialın 2020-ci il məzunları Amaliya Dadaşova, İsrafil Qayıbov, Elxan Xəlilov, İlahiverdi Talıbzadə, Murad Məmmədov çıxış edərək İsmayıl Kazımovun əsərlərinin əhəmiyyətindən, müəllim kimi məsuliyyəti və qayğıkeş olmasından, yoldaşlığından böyük qürur hissi ilə bəhs ediblər.

Professor İsmayıl Kazımov Azərbaycan Dövlət Pedaqoji Universitetin Quba filialının elmi-pedaqoji həyatında fəal iştirakına, gənc nəslin vətənpərvərlik ruhunda öyrədilməsi sahəsində xidmətlərinə və anadan olmasının 70 illiyi münasibətilə Fəxri Diplomla təltif edilib.

Sonda professor İsmayıl Kazımov Filialın direktoru professor Yusif Alıyevə, tədbir təşkilatçılarına minnətdarlığını bildirib. Bildirib ki, Göstərilən diqqət, səmimi münasibət və peşəkar təşkilatçılıq bu əlamətdar günü mənim üçün unudulmaz etdi. Tədbirin məzmunlu və mənalı şəkildə keçirilməsi universitetin zəngin ənənələrinin, eləcə də kollektivin birliyinin və hörmət mədəniyyətinin bariz nümunəsi oldu.

"Bu xoş təşəbbüsə və göstərilən qayğıya görə hər birinizə ayrıca təşəkkür edir, universitetimizin gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayıram."

Sonda fəlsəfə doktoru Aytən Qurbanovanın hazırladığı alimin həyat və yaradıcılığına həsr edilmiş videoçarx təqdim edilib, xatirə şəkli çəkdirilib.

# HEKAYƏÇİLİYƏ ELMİ MÜSTƏVİDƏN YANAŞMA

**Filologiya üzrə fəlsəfə doktoru Qurbanova Aytən Nəriman qızı 08.06.1986-ci ildə Cəbrayıl rayonunda anadan olub. 1993-cü ildə I Qarabağ müharibəsi ilə əlaqədar Bakı şəhərində yaşamağa məcbur olub.1994-cü ildən Bakı şəhəri Binəqədi rayonundakı 99 saylı orta-məktəbdə təhsilini davam etdirib, 2003-cü ildə məktəbi əlaqiymətlərlə bitirib Bakı Slavyan Universitetinin Filologiyafakültəsinə daxil olub. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra 2008-2010-cu illərdə Azərbaycan Müəllimlər İnstitutunda magistr pilləsi üzrə təhsil alıb. 2011-ci ildə AMEANizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda doktorantura pilləsi üzrə təhsilini davam etdirib. 2017-ci ildə fəlsəfə doktorluğu elmi dərəcəsi almaq üçün dissertasiya işi müdafiə edib. "Başqırd nəsrinin təşəkkülü və janr təkamülü" adlı doktorluq dissertasiyasını müdafiəyə hazırlayır.**

Filologiya üzrə fəlsəfə doktoru Aytən Nəriman qızı Qurbanovanın ”Azərbaycan ədəbiyyatında hekayə janrının tipologiyası və bədii təkamülü (1920-1930-cu illər)” adlı (Bakı, ADPU nəşriyyatı, 2025) monoqrafiyası ədəbiyyatşünasların ixtiyarına verilib. Kitabın redaktoru AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Tehran Əlişanoğludur. Əsəri müəllif dünyasını dəyişmiş müəllimlərinin - Pərvanə İsayeva, Şirindil Alışanlı və Zaman Əsgərlinin ruhlarına ithaf edib. Elə kitabda ön söz kimi də həmin alimlərin vaxtilə bu kitab haqqında söylədikləri fikirlər yer alıb.

Müəllif qarşıya qoyduğu problemi 3 fəsil ətrafında (”XX əsr hekayəsinin tipologiyası”, ”XX əsrin əvvəllərində hekayələrdə mövzu və janr əlvanlığı” və ”1920-1930-cu illər Azərbaycan ədəbiyyatında hekayə janrının təkamülü” adlı fəsillər) araşdırıb. ”1920-1930-cu illərdə yeni bədii dünyagörüşün formalaşması prosesi və onun hekayə janrındakı əksi” adlı ilk fəslin ilk paraqrafında dövrün ictimai-siyasi mənzərəsinə toxunub yazır: ”XX əsrin 20-30-cu illəri Azərbaycan həyatının ən mürəkkəb,ziddiyyətli xarakterə malik dövrlərindən biridir. Birinci Dünyamüharibəsi (1914-1918-ci illər) nəticəsində çar Rusiyasınındağılması ilə müstəqillik əldə etmiş Azərbaycan xalqı çoxtezliklə onu itirmiş, Azərbaycan Xalq Cümhuriyyətini (1918-1920-ci illər) bolşevik işğalı əvəz etmişdi. Bununla belə,Cümhuriyyətin xalqa aşıladığı azadlıq duyğuları, milliyyətçilik əhval-ruhiyyəsi heç da birdən-birə yoxa çıxmamış, əksinə, yeniqurulan Azərbaycan Sovet Sosialist Respublikasına, onun ədəbiyyatına da təsir etmişdir. Azərbaycan həyatının sovetləşdirilməsi, yeni inqilabi dalğalar, fəhlə-kəndli hakimiyyətinin qurulması milli zəmində davam etmişdir.

Belə ki, 1920-1930-cu illərdə yenilik, inqilab, kollektivəmək, sosial bərabərlik, qadın hüququ, kütləvi təhsil və maariflənmə ideyalarının cəmiyyətə tətbiqi məsələləri bir yandan ənənələr üzərində davam edirdisə, digər tərəfdən zorən, sinfimübarizələrlə, repressiyalar, sürgünlər, qan-qada, kütləvi ölümdalğaları ilə müşayiət olunurdu. Təbii ki, dövrün ictimai, tarixi,sosial, siyasi gərginlikləri daim özünü ideologiyada, mədəniyyətvə incəsənətdə, bilavasitə və bilvasitə ədəbiyyatda göstərmiş,Azərbaycan yazıçılarının dünyagörüşünə, bədii yaradıcılığına dərindən təsir etmişdir” (s.6).

Göründüyü kimi, tədqiqatçı çox doğru olaraq araşdırdığı dövrün ictimai ab-havasına öncə nəzər salmış və bunun bədii ədəbiyyatdakı inikasını hekayə janrının timsalında nəzərdən keçirməyi ən məqbul yol hesab etmişdir. Çünki M.Qorkinin təbirincə desək, ədəbiyyat həyatın güzgüsüdür. Bu mənada Aytən xanım da XX əsrin əvvəllərində dünyada və paralel olaraq Azərbaycanda baş verən ictimai-siyasi vəziyyətə nəzər yetirir, tədqiqatına elmi söykək olaraq Nazif Qəhrəmanlının ”Azərbaycanda ədəbi cəmiyyətlər (1920-1930-cu illər)” kitabında da dövrün ictimai-siyasi və ədəbi mənzərəsinə geniş və əhatəli nəzər salındığını diqqətə çəkir.

Məhz bu məntiqə söykənən tədqiqatçı daha sonra araşdırdığı dövrün ədəbiyyatını təhlil müstəvisinə gətirir, AXC hakimiyyəti və ardınca gələn bolşevik hakimiyyətinin bir-birinə daban-dabana ziddiyyət təşkil eləyən dünyagörüşlər olduğuna diqqəti yönəldib yazır: ”AXC-nin süqutundan sonra ədəbiyyatımızda, yazıçı və sənətkarların ideya və dünyagörüşündə bir müddətlik tərəddüddövrü başlayır. Belə ki, milli ruhu, vətənpərvərlik, millətçilikduyğusunu həvəslə təbliğ edən yazarlar birdən-birə yeni rejiminaxarında çaşbaş qaldılar. Çünki milliyyətçilik və kommunuzmideyaları bir-birinin davamı kimi gəlsə də, mahiyyətcə biridigərini inkar edirdi. Milliyyətçilik ideyaları üzərində yetişmişyazıçıların birdən-birə yeni rejimi qəbul edərək, sosializmi vəsfedən şeirlər, hekayələr yazması, təbii ki, bir qədər çətin məsələ idi. Odur ki, onların bəzilərinin yaradıcılığında dünənlə bağlıromantik ab-hava meydana gəldi. Mətnaltı şəkildə, müxtəlif priyomlarla yeni rejimin tənqidindən də çəkinməyən ədiblərimizinüslubunda müəyyən mənada kədər və sentimentalizm duyğuları əmələ gəldi və bu proses bir müddət açıq-aşkar olmasa da, gizlin şəkildə, ədəbiyyatın alt qatında əks olunmağa davam etdi. Butəzahürü hekayə janrında yazılmış əsərlərdə də kifayət qədər müşahidə etmək olur.

Yeni siyasi rejimi birmənalı qarşılamayan yazıçılardan Seyid Hüseyn xatirələrində də, bədii yaradıcılığında da bunu əksetdirmişdir. ”Çarxların hücumu” hekayəsinin baş qəhrəmanıMuradın prototipi, yazıçının özünün də etiraf etdiyi kimi, müəllif idi. Hekayənin ətraflı təhlilinə bir qədər irəlidə nəzər salınacaq.Hazırda ona diqqət çəkmək istəyirik ki, hekayənin sonluğu bəhs etdiyimiz sentimental hisslərin təcəssümü ilə bitir. Baxmayaraqki, hekayə 1927-ci ilin oktyabrında yazılmışdır, müəllifin hələ də tərəddüd mərhələsində olduğu aydın nəzərə çarpır:

”Murad əli ilə gözlərini silib, təkrar özünü xəyal aləmindənayırıb həqiqət aləminə gətirmək istədi. Gördüyü şeylərin xəyalolduğunu düşünürdü. Fəqət maşınların yüzlər, minlərlə dönənçarxları xəyal deyildi.

...Muradın gözləri dəhşətdən böyüdü, boğazı qurumuşdu, hərəkətsiz baxırdı. Ortada olduqca böyük tankabənzər, yerlə sürünən qorxulu bir maşın vardı; üzərinə qızıl bir bayraq asmışdılar. Sanki ətrafında y?z minlər, milyonlarla dönən çarxların yardımı ilə bu maşın yavaş-yavaş irəliləyir, qarşısınaçıxan hər şeyi uçurur dağıdır...”

Fikrimizcə, hekayədəən maraqlı simvol ”qorxulu bir maşın” ifadəsidir. Yazıçı hətta açıq-aşkarcasına üstündə qızıl bayraq olduğunu da qeyd edərək, bu maşını SSRİ-nin simvolu kimi vermişdir” (s.8-9).

Təhlillərdən və irəli sürülən mülahizələrdən aydın görünür ki, filologiya üzrə fəlsəfə doktoru Aytən Qurbanova ədəbiyyat məsələlərini çox haqlı olaraq dövrün ictimai-siyasi mənzərəsi ilə uzlaşdırıb, bu əsasda mühakimələr yürüdür.

Gənc alim Aytən xanım Seyid Hüseynlə yanaşı C.Məmmədquluzadə, Ə.Haqverdiyev və başqa bu kimi dövrün tanınmış ədiblərinin yaradıcılıqlarına müraciət edir, əyani misallar yolu ilə o zamanın hekayələrinin timsalında zamanın - dövrün bədii inikasını açıb göstərir. ”Bu əhval-ruhiyyə 1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərindəəksər klassik yazıçıların yaradıcılığında özünü göstərir, o cümlədən nəsrin ən çevik janrı olan hekayələrdə əksini tapırdı. Baş verən məlum ictimai-siyasidəyişikliklər adikəndlidən, savadsız camaatdan tutmuş ziyalı təbəqəsinə, bir sıra ədəbi xadimlərin, şair və yazıçıların beynində, fikirlərində, həyatında müəyyən dəyişikliklər etdi. Müəlliflərin yazı üslubu, əsərlərin mövzusu, ideyası tədricən dəyişildi.

”XIX əsrin sonlarından etibarən Azərbaycan ədəbiyyatın-




da,xüsusilə də bu dövrdən başlayaraq populyar, oxunaqlı janraçevrilən hekayədə Azərbaycan xalqının ictimai problemləri, onun müxtəlif zümrələrinə məxsus insanlar arasındakı problemlər əksini tapmağa başladı. Mütərəqqi fikirli ziyalılardan olanR.Əfəndiyev, E.Sultanov, İ.Musabəyov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, T.Şahbazi, S.S.Axundov, A.Şaiq, B.Talıblı və b. bu kimi yazıçılarhekayələrində zümrələrarası problemləri, varlı mülkədarlarınkəndlilərə, mədən sahiblərinin fəhlələrə çəkdirdiyi zülmü, dinpərdəsi arxasında gizlənib ondan şəxsi mənfəət naminə istifadə edən riyakar və bu ziyanın qurbanı olan müsəlmanların yaşadığıhəyat faciəsinin dolğun obrazlarını yaradırdılar” (s.14).

Bu minvalla tədqiqatçı o dövr yazıçılarının hekayələrində təsvir olunan ictimai mənzərəni açıb göstərir, yazıçıların yaradıcılığında gedən təkamül prosesini ayrı-ayrı mərhələlər fonunda izah edir. Bu mərhələləri 1) inqilab pafosu (1917-ci ilin Böyük Oktyabr Sosialist İnqilabı), 2) Keçmişlə mübarizə (köhnə və yeni dünya arasında gedən mübarizə), 3) Yeni həyat quruculuğu (sosializm) kimi problem - situasiyalar adı altında qruplaşdırıb, bunların hər birinin həyatda və ədəbiyyatda əksini tapan səciyyəvi cəhətlərini ortaya qoyur:

”Dövrün bütün bu siyasi, sosial hadisələri ən xırdadetallarınakimi öz əksini Azərbaycan ədəbiyyatında tapırdı. Sovet dövrü ədəbiyyatı haqqında danışarkən bir sıra tədqiqatçılar göstərir ki,yeni quruluşun ilk beşilliyində (1927-1932) daha çox poeziya və dramaturgiya inkişaf edirdi. Nəsrdə, o cümlədən hekayə janrındabaşlayan qəfil inkişafın səbəblərini isə rus ədəbiyyatının təsiri ilə izah edirlər: ”Rus sovet nəsrinin ədəbi tarixi təcrübəsi və həminmövzuda olan ”Əzablı yollarla” (A.Tolstoy), ”Tarmar” (Serafimoviç), ”Çapayev” (Furmanov) və s. əsərlərin yaranmasıqardaş xalqların ədəbiyyatına, o cümlədən Azərbaycan sovetnəsrinin ideya bədii inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Rus ədəbiyyatında XIX əsrin 30-40-cı illərində inkişafabaşlayan hekayə janrı və ümumilikdə, nəsr, Azərbaycan ədəbiyyatında da müəyyən dərəcədə canlanmaya təkan vermişdir. Ancaq milli ədəbiyyatımızda nisbətən güclənən maraq XIX əsrinson onilliyindən etibarən daha da artmış, nəticədə XX əsrin əvvəllərində hekayə janrının ən mükəmməl örnəkləri meydanagəlmişdir.

”V.Q.Belinskinin”povestin kiçik qardaşı” adlandırdığıhekayə XIX əsrin otuzuncu illərinin əvvəllərindən etibarən həcminin kiçikliyinə görə povestdən fərqlənməyə başlamışdır” (s.17).

Gördüyümüz kimi, tədqiqatçı araşdırma obyekti olaraq götürdüyü hekayə janrının ədəbiyyatımızda intişar tapıb canlanması amilinə də nəzər salır, maraqlı və obyektiv təhlillər aparır, dəyərli mülahizələr irəli sürür. Eyni zamanda nəzəri fikirlərini ayrı-ayrı yazıçılarımızın hekayə yaradıcılığına müraciət etməklə əyani şəkildə isbata yetirir. Bu hekayələrin üst planında qoyulan ideyanın və hər bir bədii əsərə xas olan mətnaltı mənaların daşıdığı missiyanı analitik şəkildə şərh edib əsaslandırır.

Müəllifin ”Yeni insan konsepsiyası və onun hekayə janrında inikası” adlı 2-ci paraqrafda qoyduğu məsələyə münasibəti də onun bədii sənətə, ədəbiyyat məsələlərinə ümumi baxışlarını özündə dolğunluğu ilə ehtiva edir:

”Bədii sənətdə İnsan konsepsiyası, insanın özü qədər mürəkkəb olub, ədəbiyyatı daim məşğul edən ümdə məsələlərdəndir.Sonsuz sayda araşdırmaların obyektinə çevrilən insan hər dövrdə yenidən elmi və bədii düşüncənin mərkəzinə gəlir, haqqındakonseptual fikirlər, yeni konsepsiyalar irəli sürülür. Danılmaz faktdır ki, insan faktoru incəsənətin, bilavasitə ədəbiyyatın daimitəhlil obyekti, predmeti olmuşdur. İstər dolayısı ilə cəmiyyətproblemlərinin həlli olsun, istərsə də bilavasitə insanın lirik-psixoloji hissləri, həyatı, yaşayış tərzi, xoşbəxtliyi, yaxudbədbəxtliyi, keçmişi, gələcəyi, düşüncələri və məhəbbəti üzərinədiqqət cəmlənərk?n bədii idrak yeni obrazlar, qəhrəmanlar kəşfedir, yaradır. ”Bu baxımdan çox mürəkkəb və dramatik dövr olan XX əsrdə də sənətdə insanın bədii-estetik dərki problem müxtəlifliyi ilə diqqəti cəlb edir. Təsəvvür etmək yox, sadəcəelmi müşahidələr və araşdırmalar kifayət edir ki, bu müxtəlifliyigörək”.

Ədəbiyyat bir növ müxtəlif insan simalarını özündə cəmləşdirən bir topludur. Uşaqdan böyüyə, yaxşıdan yamana, mübariz, zəif, ağıllı, dəli və s. sonsuz sayda obrazlar qalareyasıdır. İnsanın yaranıb cəmiyyətdə formalaşması, onun mühitətəsiri, cəmiyyətin ona münasibəti, şəxsiyyət kimi formalaşması,yaxud əksinə, cəmiyyətdən təcrid olunması kimi məsələlərüzərində qurulan bədii ədəbiyyat ədəbi qəhrəmanın zənginmünasibətlərdən doğan daxili, ruhi sarsıntıları, cəmiyyətlə şəxsiyyət arasındakı mövcud dramatizmi müəyyən edir. Zamankeçdikcə ədəbiyyata gələn insan da dəyişir, fərqlənir. Hər dövrünöz tələbinə uyğun yeni insan formalaşır və bu, insanlara,c?miyyətə münasibətdə ədəbiyyatda adekvat əksini tapır.İstənilən mövzu, yazıçının, şairin toxunduğu istənilən problemin mərkəzində insan dayanır.

1920-1930-cu illərdə sovet quruluşunun ədəbiyyat qarşısındairəli sürdüyü əsas ideoloji tələb yeni cəmiyyətin, sosializm və kommunizm qurucusunun obrazını yaratmaq, bu obrazı nəinki keçmişəkapitalizm və feodalizm cəmiyyətinə qarşı qoymaq,habelə bütün dövrlərin ən nümunəvi etalonu kimi təsdiq etmək,gələcək həyatın rəhni olaraq irəli sürmək idi. Bu dövrdə yazıçı və şairlərin əsas vəzifəsi sovet insanına həyatın mənasını dərketməkdə yardımçı olmaq idi.

Sovet ədəbiyyatı müxtəlif onilliklərdə müəyyən dəyişikliklərə uğrasa da, prinsipləri dəyişməz idi. Sovet ideologiyası, əzmkarlıq ruhu, ictimai düşüncə, birgəəmək, sosial bərabərlikuğrunda mübarizə, qadın hüquqları, sovet insanı, humanizm və s.kimi məsələlər və bunu ifadə edən obrazlar sistemi mövcud ədəbiyyatın xarakterini müəyyən edirdi. Zaman keçdikcə ədəbiyyata gələn insan da dəyişir, fərqlənir. Hər dövrün öztələbinə uyğun yeni insan formalaşır və bu, bədii ədəbiyyatda əksini tapır. Yazıçının qarşısında duran ən mühüm vəzifə dövrün ”ictimai sifarişi”nə həssas olmaqdır. Hər bir bədii əsərdə olduğukimi nisbətən kiçik həcmli janr - hekayənin dəəsasında birinsan, yaxud həyat hadisəsi durur. Ədib çalışmalıdır ki, təqdimetdiyi obrazı da, təsvir etdiyi hadisəni də dövr üçün qlobaləhəmiyyətli, müasir mövzular içərisindən seçə bilsin. Ədəbiqəhrəmanın bütün dövrlər üçün maraq kəsb etməsi bu amildən çox asılıdır.

1920-1930-cu illərin mürəkkəb ictimai-siyasi və mənəvidurumunda yeni insanı, insan psixologiyasında baş verəndəyişmələri əks etdirmək heç də asan məsələ deyildi. Ədəbiyyat insan xarakterinin və psixologiyasının təsvirini verən unikalvasitədir. Bəzən fərqinə varırıq ki, cəmiyyətdə hər on il ötdükcə insanların xüsusiyyətlərində, düşüncə tərzində, geyimində,cəmiyyətə, ətrafındakılara münasibətində xeyli dəyişmələr baş verir. Tarixi formasiya dəyişikliyi isə bütün cəmiyyəti,bəşəriyyəti kökündən dəyişməyə qadir olan bir hadisədir” (s.27-28).

Kitabdan gətirdiyim bu hissədə biz Aytən Qurbanovanın problemə analitik təfəkkür tərzi ilə baxış bucağını izləyirik. Onun sənət anlayışına - ədəbiyyata geniş rakursdan baxa bildiyini görürük. Onun insan faktorunun ədəbiyyatda əvəzolunmaz mərkəzi sima olduğuna dair baxışları bir daha yetkin təfəkkürə malik olan ədəbiyyatşünas olduğunu ortaya qoyur.

Bir alim kimi Aytən Qurbanovanın müşahidə və tədqiqatçılıq dairəsi çox genişdir. Belə ki, o, baxmayaraq ki, tədqiqat obyekti olaraq Azərbaycan ədəbiyyatını götürüb, amma bununla yanaşı rus ədəbiyyatını, paralel olaraq türk və o cümlədən Orta Asiya türklərinin ədəbiyyatını da gözdən keçirir: ”Türk xalqları ədəbiyyatını araşdırarkən 1920-ciillərin ədəbiyyatında bir sıra fərqli xüsusiyyətlərin olması dadiqqətdən yayınmır. Azərbaycan ədəbiyyatında dövrün - 20-ciillərin ən aktual mövzusu olan quruculuq, kollektivləşmə, kolxozquruculuğu kimi məsələləri digər türk xalqlarının ədəbiyyatında daha gec mərhələdə izləyirik. Bunun səbəbi, təbii ki, sovethakimiyyətinin digər xalqların həyatında bir az gec-Özbəkistan,Türkmənistan 1924, Tacikistan 1929, Qazaxıstan, Qırğızıstandaisə 1936-cı illərdə qurulması idi. Elə bu səbəbdən də 1921-1922-ci illərdə Azərbaycan ədəbiyyatında təsvir olunan bir sıraməsələlər Qazax ədəbiyyatında 1930-cu illərdə öz əksini tapmağa başlamışdı. Ancaq istər Azərbaycan, istər Anadolu, istərsə də Orta Asiya türklərinin ədəbiyyatında bir məqam diqqəti cəlb edir. Soykökə, keçmişə bağlılıq, keçmişin müasirlik üzərində hökmranlıq etməyə çalışması və s. kimi məqamlar.

Sovet dövrü Qazax ədəbiyyatının ən görkəmli yazıçısıMuxtar Auezovun yaradıcılığı mövzu baxımından kifayət qədərrəngarəngliyi ilə seçilir. Müəllif XX əsrin əvvəllərində yaradıcılığı ilə həm Qazax, eyni zamanda Türk xalqlarının ədəbiyyatında xüsusi çəkiyə malikdir. Hər üç ədəbi növdə yazan Muxtar Auezovun yaradıcılığının ən məhsuldar dövrü isə 1920-1930-cu illərə təsadüf edir” (s.41).

Bu yolla fəlsəfə doktoru A.N.Qurbanova 1920-1930-cu illər ədəbiyyatımızdakı hekayə janrının tipologiyası və bədii təkamül yoluna geniş çevrədən nəzər yetirir, olduqca dəyərli bir monoqrafiyanı ədəbiyyatşünaslığımıza töhfə edə bilir. Aytən xanıma yeni-yeni elmi nailiyyətlər arzulayıram!

**Şakir Əlifoğlu**


Şəhid Emin Musayev


Şəhidin adını yaşadan əsgər Emin

# ADI DA YAŞAYIR, RUHU DA...

**Musayev Emin Həsən oğlu 31 mart 1971-ci ildə Cəbrayıl rayonunun Stansı Mahmudlu kəndində dünyaya gəlmişdi. Atası Həsən kişinin, anası Qızqayıt Salman qızının sevinclərinin həddi-hüdudu yox idi həmin gün. Uca Tanrı 4 qızdan - Ofelya, Aybəniz, Lətafət və Təranədən sonra ailəyə oğul payı bəxş etmişdi. Axı oğul düşmən çəpəridi deyib babalarımız. Emindən sonra Allah-təala ailəyə bir oğul payı da bəxş elədi. Eminin adına yaraşdırıb onun da adını Elvin qoydular. Beləcə, 4 bacı, 2 qardaş oldular. Bir-birlərinə can deyib-can eşitdilər. Şadşalayın bir damın altında yaşadılar. Necə xoşbəxt, necə bəxtəvər hiss edirdilər özlərini.**

Emin böyüyüb orta məktəbə getdi. Günlər, aylar, illər bir-birini tez-tez əvəz etdi. Beləcə, 1978-1988-ci illər, bu on il sanki bir göz qırpımında gəlib keçdi. Emin Şükürbəyli kənd orta məktəbini başa vurdu. Daha sonra əsgərlik yaşı çatdı. Sverdlovskda 2 illik hərbi xidmətdə oldu. Əsgərlikdən gəldikdən sonra Emin Sumqayıt şəhərinə gəldi, texniki peşə məktəbinə daxil oldu. Fikri var idi ki, peşə təhsilini tamamalayıb doğma yurda dönər, bir el gözəlini də gözaltılayıb ailə həyatı qurar, həyatın çəmin-çövürün tapıb şad-xürrəm yaşayışını davam etdirər. Ancaq həyat heç də insanın arzuları ilə hərəkət etmir. Bəlkə də olardı, amma namərd qonşularımız dədə-baba torpaqlarımıza göz dikməsəydilər.

Ermənilərin vətənimizə qarşı ərazi iddiaları və Qarabağımızın, Cəbrayılımızın işğal təhlükəsi əksər gənclərimiz kimi Emin Musayevin də həyatını dəyişdi. Sumqayıtdakı peşə təhsilini yarımçıq buraxıb, torpaqlarımızın müdafiəsi üçün könüllü olaraq Cəbrayıla qayıdır, özünümüdafiə batalyonuna qoşulur, Sirik batalyonunda döyüşçü kimi, tankçı və snayperçi kimi torpaqlarımızın müdafiəsinə qoşulur. Atası ona qayıdıb təhsilini tamamlamağı tövsiyə etsə də, o öz inadından dönmür, "sən qoruma, mən qorumayım, bəs kim qorusun vətəni", - deyir.

Bu minvalla Eminin 1992-ci ildən başlanan döyüş yolu 1993-cü ilin aprelinəcən davam edir. 1993-cü ilin aprelində Tağ kəndi uğrundakı döyüşlərdə əsgər yoldaşlarını mühasirə vəziyyətindən çıxarmaq üçün döyüşə atılır. Düşmənlərin üzərinə qumbara atır. Düşmənlər də buna qarşılıq olaraq onun düz üstünə qumbaranı tullayırlar. Ağız nayihəsindən, çənəsindən ağır zədə alan Emini təcili tibbi yardım maşınına qoyub. Cəbrayıl xəstəxanasına, ondan sonra da Füzulidəki Qaraxanbəyli kəndindəki hərbi xəstəxanaya aparırlar. Vəziyyəti ağır olduğundan burdan da vertolyotla Bakıya - Popanin qospitalına götürürlər. Lakin həkimlərin ciddi-cəhdlərinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmur. Aprelin 14-də səhər üzü saat 6-da keçinir. Onu Bakıya aparan vertolyotla da geriyə - Cəbrayıla gətirirlər. Vertolyot Şükürbəyli stadionunda eniş edir, Eminin nəşini Stansı Mahmudluya, evlərinə gətirirlər. Anasının, bacılarının vay-şivən səsləri göyə ucalır. Yergöy başlarına uçmuş kimi olur. Bəs necə? Ata-ana oğul böyütmüşdü ki, oğul toyu görsünlər, qardaş və bacıları böyük qardaşlarının toyunda qol götürüb oynamaq sevincini gözləyirdilər. Bütün bunlar - bu xoş diləklər hamısı gözlərində qaldı. Allah düşmənlərimizin bəlasını versin...

Emini el-oba böyük izdihamla Şükürbəyli kənd qəbiristanlığında yığışıb dəfn edirlər. Dəfnindən 4 ay sonra isə doğma Cəbrayılımız işğal faciəsilə üzləşir. Əhali yerindən-yurdundan, elindən-obasından dərbədər olub didərgin düşür. Emingilin ailələri də məcburi köçkün kimi Şirvan şəhərinə gəlir. Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Sədaqət xanım şəhid ailəsi kimi onları nəzakətlə qarşılayır, yataqxanada mənzillə təmin edir, beləcə ailə burada məskunlaşır. Qeyd edim ki, Eminin dayısı Əliyev Vasif Salman oğlu da institutu bitirdikdən sonra təyinatla Şirvan şəhərində coğrafiya müəllimi işləyirdi.Eminin anası infarkt nəticəsində 2000-ci ildə, atası da 2004-cü ildə oğul dağı və yurd nisgili ilə dünyalarını dəyişirlər.

Şəhid Eminin bacısı Ofelya Məmmədova ilə söhbətdə ötən illərə qayıdırıq. O deyir ki, atamız Cəbrayılın mərkəzində avtobazada mühəndis işləyirdi. Anamız isə Şükürbəyli kənd xəstəxanasında mama-ginekoloq idi. Çox mehriban ailəmiz vardı. Emin isə başqa bir aləm idi. Uşaq vaxtı özünə tapança düzəldərdi. Elə bil ki, taleyinə silahla oynamaq yazılacağını bilirmiş. Döyüşlərdə də həm tankçı kimi, həm də pulemyotçu, snayperçi kimi iştirak etdi. Ustalığı da vardı. Belə ki, maşınları düzəldər, hətta öz tankını da özü təmir edərdi.

Şəhid bacısının bu sözləri məni məndən alıb haralarasa çəkib apardı. Fikrimdən çox şeylər gəlib dolandı. Həmin vaxtlardan bir qərinəlik zaman adlayıb keçib. Emin kimi igidlərimiz doğma yurdumuzun üstündə canlarını qoydular. Sağlığında özləri, şəhid olduqdan sonra da ruhları vətən torpağında qalıb vətənin səmasında ulduz kimi sayrışaraq, vətənin keşiyini çəkdilər. Bu gün artıq doğma torpaqlarımız yağı tapdağından, yad nəfəsindən azad olunub. Şəhidlərimizin ruhları da, doğma yurddan aralıda dünyalarını dəyişən valideynlərimizin də, əzizlərimizin də ruhları şaddır.

Eminin qardaşı da, bacıları da hamısı artıq ailəlidir. Qardaşı Elvinin oğlu isə əmisinin adını qürurla yaşadır. Hazırda əsgəri borcunu şərəflə yerinə yetirir. Silahdan atəş atışı üzrə təlimlərdə xüsusi fərqlənən və idmanla məşğul olan Emin təkcə adında yox, cismində-ruhunda da şəhid əmisinin qəhrəmanlıq mücəssəməsini gəzdirir. Nahaq demirlər ki, şəhidlər ölmürlər!...

**Şakir ALBALIYEV**

# KÖNÜL DÜNYASINDAN GÖRÜNƏNLƏR...

**Filologiya üzrə fəlsəfə doktoru Süleyman Qaçay oğlu Alıyevin "Abbas Pənahi Makulu" (2005), "Ədəbi-bədii düşüncələr" (2014), "Çağdaş poeziyamızda Nəsimi" (2014) kitablarından sonra "Könül dünyasının düşüncələri" ("Elm və təhsil", 2025) kitabı işıq üzü görüb. Kitabın tərtibçisi və redaktoru müəllifin öz oğlu tərcüməçi-jurnalist Zakir Alıyev, rəyçisi və ön söz yazanı filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimlidir.**

Kitaba yazılan ön sözün başlanğıcını gözdən keçirmək bəs edər ki, kitabın əsas məğzi və mövzusu haqda ümumi məlumat alasan: "Yazı masamın üstündə nəşrini gözləyən "Könül dünyasının düşüncələri" kitabı tanınmış tədqiqatçı alim, filologiya üzrə fəlsəfə doktoru Süleyman Alıyevin növbəti kitabıdır. Kitabın maraqlı tərtibatı var: kitaba həm müəllifin qələm və sənət dostları ilə bağlı illər öncə apardığı araşdırmaları, eləcə də müəllif haqqında ayrı-ayrı fikir və düşüncə adamlarının qələmə aldıqları məqalələri, həmçininvətəndaş qayğılı qələm sahibinin bir neçə publisist xarakterli yazıları daxil edilmişdir. Və toplum şəklində bu məqalələrin hər birində zamanın və insan talelərinin özünəməxsuscizgiləri öz əksini tapıb.

Kitab müəllifin "Yeddi rəngin harmoniyası" məqaləsiilə başlayır. Bizcə, bu da təsadüfi deyil. Çünki dünyamızınilkin başlanğıc nöqtəsi sözlə rəngin harmoniyasından ibarətdir, həm də hər bir sözün, rəngin özünün ayrıca ahəngivə harmoniyası var. Eləcə də sözlərin və rənglərin ən böyük harmoniyasının vəhdəti insanın daxili-mənəvi dünyasının harmoniyasıdır. Müəllifin bu məqaləsi istedadlı şair,publisist, nasir, həm də bütöv bir yaradıcı nəslin tribunasıolan "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələflinin "Sözün yeddi gözəli" kitabının elmi təhlilinə həsr edilib.Azərbaycan elmi-ədəbi mühitində imzaları ilə az-çox seçilən yeddi yaradıcı xanımın yaradıcılığına həsr edilən "Sözün yeddi gözəli" kitabı S.Alıyevin qələminin təhlilindəyeni bir dəyər qazanır".

Xanəli Kərimlinin bu giriş cümlələrində həm Süleyman müəllimin müəllif kimi kimliyi, həm də kitabının ümumi strukturu haqqında da ümumi təsəvvür yaranır. Mən əbəs yerə kitabın tərtibçisinin müəllifin öz oğlu olduğunu diqqətə çəkmədim. Bu məqam həm də Süleyman müəllimin xoşbəxt ailə sahibi və ləyaqətli övlad(lar) atası olduğunu göstərir. Çünki hər oğul, hər övlad valideynə qarşı münasibətdə bu cür qayğıkeş və həssas olmur. Atasının ayrı-ayrı vaxtlarda yazdıqlarını və eyni zamanda atası ilə bağlı yazılanları yığıb bir yerə toplamaq və sistemli halda nəşr etdirmək ata - oğul sevgisinin bariz nümunəsini ortaya qoyur. Bu fakt həm də onu deməyə haqq qazandırır ki, təkcə yaxşı qələm sahibi - yaxşı alim-publisist olmaqla iş bitmir, həm də gərək cəmiyyət üçün nümunəvi ailə başçısı, yaxşı vali-




deyn olasan və ailəyə də, cəmiyyətə də ləyaqətli övladlar bəxş edə biləsən. Bu mənada Süleyman Alıyev xoşbəxt atadır; onun bir oğlu Şakir Alıyevi "Azərbaycan" qəzetində çalışan jurnalist həmkar kimi və bir gözəl insan kimi, bu kitabın tərtibatçısı olan oğlu Zakiri də dini dəyərlərimizə bağlı olan mədəni səviyyəsi ilə fərqlənən bir insan kimi tanıyıram.

Bütün bunları nəzərə çarpdırmaqda məqsədim budur ki, "məqalələrinin hər birindən bizə ayrı-ayrı insan talelərini təqdim edən" (Xanəli Kərimli) Süleyman Alıyev təkcə yazılarından yox, yetirib-bitirdiyi övladlarının timsalında da cəmiyyətə ləyaqətli insanlar təqdim etməyi bacarıb. Yəni onun yazdıqları ilə yaşadıqları bu insanların da simasında bir-birilə ahəngdarlıq yaradıb. Başqa sözlə, Süleyman müəllimin publisist yazılarında mənəviyyat etalonu olaraq oxucularına təbliğ və təqdim etdiyi obrazların - insanların özləri kimi də onun cəmiyyətə bəxş etdiyi insanların - övladların mənəvi ab-havaları arasında uyğunluq bir-birilərini tamamlayır.

Xanəli Kərimlinin ön sözündə də qeyd olunduğu kimi, kitabdakı yazıları iki qismə bölmək olar: birinci və kitabın böyük əksəriyyətini təşkil eləyən yazılarda Süleyman Alıyevin özünün ədəbi-pedaqoji düşüncələri, vətənpərvərlik və s. mövzularda yazıları verilib. İkinci qisim yazılarda isə kitabın müəllifi haqqında ayrı-ayrı qələm adamlarının məqalələri özünə yer almışdır. Birinci qisim yazılarda müəllifin özünün "Könül dünyasının düşüncələri" işığında ayrı-ayrı adamların həyatı və yaradıcılıq mövqeyi işıqlandırılır, ikinci tip yazılarda isə ayrı-ayrı şəxslərin qələmində Süleyman Alıyevin mənəvi dünyasına nəzər salınır.

**Şakir ƏLİFOĞLU**

# Dilimizdə, adımızda, dialektimizdə həkət

**Dilimizdə bir "həkət" sözü var. Unudulub sıradan çıxsa da, bəzi bölgələrimizdə dialekt söz kimi işlənməkdədir. Hətta Nəzakət adına bəzən əzizləmə forması kimi Nəzakət - naz-həkət, söz-həkət də deyirik. Yaxud da birisi nahaq yerdən söz-söhbət yaradanda, qeylü-qala səbəb bir iş tutanda, qalmaqal yaradan söhbət (qiybət) edəndə, ona nəzərən "nağıla - həkətə bax ey" deyib fikrimizi - münasibətimizi bildiririk. " Filankəs başdan-ayağa həkətdi", yaxud "onun işi-peşəsi həkət eləməkdi" və s. şəklində ifadələrlə kiminsə sözçül-söhbətcil, qiybətcil, dava-dalaşa səbəb ola biləcək danışıq yaradan birisi olduğunu demək istəyirik. Bir sözlə, hazırda dilimizdə, dialektimizdə mövcud olan həkət ifadəsi hardasa mənfi çalardakı söz-söhbətə (qiybətvari danışığa) işarədir. Ancaq yəqin ki, vaxtilə həkət sözü elə söz-söhbət sözünün normal sinonimi kimi işlənirmiş.**

Ölkəmizin qədim tarixə malik, mühafizəkar bölgələrindən olan Qazax rayonundan bir xanımın adının da Həkət olduğunu bilirəm. Daha doğrusu, şəxsən tanıyıram - Həkət Göycə qızı. Öz adı kimi rəhmətlik atasının adı da qədim türk adıdır. Bəs nəyə görə 1950-ci illərin sonunda valideynləri öz qızlarına Həkət adı qoyublar?

İlk dəfə bu adı eşitdiyim gündən reaksiyam müsbət və təqdiredici olub. Çox təbii qəbul etmişəm. Həkət sözü söz-söhbət mənasındadır: özü də bugünkü mənfi çalarda yox, adi söz-söhbət, daha doğrusu, ulu söz, müqəddəs söz mənasında olub güman ki. Valideynlər öz qızlarına Həkət adı verməklə onun böyüyüb gələcəkdə şərəfli ana adının daşıyıcısı olmasını arzulamışlar. Ana isə körpəsinə dil öyrədən - dilin əlifbası, özülü, sütunu sayılan söz (həkət) öyrədən müqəddəs varlıqdır. Bu məntiqdən də həkət sözünün xüsusi isim kimi qızlarımıza verilməsi təbii haldır.

İraq türkmanlarının "Arzu-Qəmbər" dastanında həkət sözünün adi söhbət, danışıq mənası verdiyi anlaşılır: "Bu ki (iki - Ş.A.) qardaşın her birinin bir arvadı varıydı. Arvatlar ki canıydı. Bular her gece otırdı lar hakat edirdiler, matal diyerdiler. Bir gece böyük qardaş küçük qardaşa dedi, kimizin de arvadı ki canıdı. Menim arvadım qız doğsa, seniyki oğlan doğsa, kisi birbirinin adaxlısı ossın. Eger seniyki qız doğsa gene birbirinin adaxlısı ossunlar. Ki qardaş el ele çaldı, birbirlerini öptüler, bir-birlerine de söz verdiler."

Dastanın Tuzhurmatı variantından gətirdiyim bu parçada həkət sözünün adi danışıq anlamı verdiyi halda, digər bir hissəsində isə elə dedi-qodu şəklində söz-söhbətə işarə vurduğu görünür: "Nenesi Arzının saçından çekeledi; bir baqa qoparttı, tehirtehir hakatlar dedi özüne".

Dastanın digər bir yerində də biz həkət sözünün mənfi çalarda işləndiyini görürük:

"Qamber bilezigi taxtı Arzı'nın qolına, Arzı eve getti. Gene nenesi başladı Arzı'ya tehir tehir söz saymağa, pis pis hakat demeğe. Dedi qoy babay gelsin, men seniy haqiden gelem".

Bütün bunlar bir daha dilimizdəki, dialektimizdəki və adımızda ifadəsini tapmış həkət sözünün geniş məna arealına malik olduğunu göstərir.

**Şakir ALBALIYEV**

# Kimlər gəldi, kimlər keçdi bu dünyadan!..

**Nazir Çərkəzoğlu görüb-götürdüklərini yazının-dəftərin yaddaşına gətirən qələm sahiblərindəndir. Yəni o, həyatda gördüklərini, şahidi olduqlarını müşahidə yolu ilə düşüncə aparatından keçirib, sonradan bunları mütəəssiredici bir şəkildə yazıya gətirir. Əlbəttə ki, bunun üçün öncə gərəkdir ki, onun ruhunu tərpədib-dilləndirən, onu təsirləndirən həyati amillər ola. Yazı əhli onu narahat edib, düşündürən, ya həyatında mühüm rol oynayan hadisələri özünün həyata baxış bucağından yanaşmaqla oxucularına çatdırmağı özünə mənəvi yazıçılıq borcu hesab edir.**

Nazir müəllim Cəbrayılın Dağtumas kəndindəndir. Buna görə də onun yazdıqlarında doğma kəndinin təbiətinin təsviri və insanların obrazı da əsas mövzu kimi götürülür və oxucularına təqdim olunur.

Dağtumasda Mehdi müəllimi hamı tanıyırdı. Sinif müəllimi idi. Oğlanları Vaqif, Vahid, Vidadi, Volodya, qızları Sehran və Tehran. İndi həyatda nə Mehdi müəllim var, nə də onun həyat yoldaşı Gülarə xala. Nə də ki, sonbeşik oğlu olan Volodya müəllimdən başqa digər 5 övladı. Vaqif də, Vahid də, Vidadi də - hər üç qardaş qələm əhli idilər. Şair təbiətli, kövrək duyğulu bu insanların həyatdakı cismani yoxluqları bir həmkəndli kimi də, onlara simsar olan, tay-tuş olan insan kimi də hamı kimi Nazir müəllimə də acı təsir edib, belə deyək ki, qəlbinin sarı simini sızıldadıb.

Bu kitabda Nazir Çərkəzoğlu həyatdan vaxtsız - yəni vətən həsrətilə, yurd hissi ilə köçüb gedən üç qardaşdan - Vahid müəllimdən,Vaqif Mehdidən, Vidadi Haqverdiyevdən kövrək hisslərlə söhbət açır. Onların ədəbi-poetik dünyalarına həzin duyğularla səyahət edir, oxucularda üç qardaşın həyat hekayəsi barədə aydın təsəvvür formalaşdırır. Kitabı oxuduqdan sonra oxucular ürək yanğısı ilə daxili dünyalarında "kimlər gəldi, kimlər keçdi bu dünyadan!.." təəssüf nidasını öz-özlərinə pıçıldayıb-kövrəlirlər. Bununla yanaşı, bu kitabda Qubadlı rayonunun Mollalı kəndindən olan, yurd nisgili ilə dünyasını dəyişmiş ağbirçək, nurani simalı Şəfiqə anadan da həzin və kövrək hisslərlə söz açılır. Oxucuların gözləri qarşısında istər doğulub - yaşadığı Mollalı kəndində, istərsə də məcburi köçkün kimi yaşadığı Bakı şəhərində Azərbaycan qadınının mübariz və dəyanətli obrazının ümumiləşmiş səciyyəsi şəklində Şəfiqə ananın keçmiş olduğu əzmkar həyat yolu canlanır.

Gördüyümüz kimi, Nazir Çərkəzoğlu bu kitabında dörd nəfərin keçib-getdiyi və bu gün onların xatirələrə dönmüş həyat yolundan söhbət açır. Onların üçü bir ailənin üzvü olmaqla üç qardaş hekayətini əks etdirir. Digəri isə müəllifin qızı Bəhriyyənin qaynanası olan ağbirçək Şəfiqə ananın ağır və keşməkeşli ömür yoluna işıq saçır. Ümumilikdə isə onların hər biri müəllifin yaşadığı ömür yolunda yaxından görüb-tanıdığı doğma insanlardır. Yuxarıda qeyd etdiyim kimi, Nazir müəllim həyatdan görüb-tanıdıqlarını mütəəssiredici bir dildə qələmə alan söz əhlidir. Bir vaxtlar onların həyatda var olduqlarından Nazir müəllim özünü necə bəxtəvər hiss edirdisə, onları, necə deyərlər, həyatının bir parçası kimi görüb sevinirdisə, indi onların fiziki yoxluğundan da eyni dərəcədə kövrəlib məyus olur, kədərəngiz bir halda bu təsirlənmələri oxucuları ilə bölüşür. Onların xatirələri işığında qələmə aldığı bu kitabı vasitəsilə Nazir Çərkəzoğlu sanki onun üçün bu doğma olan insanlara bir mənəvi yaşam vəsiqəsi təqdim etmişdir. Belə ki, insan nə qədər xatırlanırsa, ömrü də o qədər yaşayır.

Üç qardaş hekayəsi, bir ana dünyası haqda söz açan bu kitabda onlar əbədi oxunulacaq və xatırlanacaqlar!..

**Şakir Əlifoğlu**

# "Başı qaydına qalsın"

**El arasında belə bir qarğış var: "filankəsi başı qaydına qalsın", yaxud "səni görüm başı qaydına qalasan" və s. Burdakı "başı qaydı" ifadəsinin üstündə dayanmaq istəyirəm. Əvvəla, burdakı "başı" ifadəsi qeyri-müəyyən yiyəlik halda olub, əslində "başının" şəklinin qısa deyiliş şəklidir. "Qaydı" sözündə isə mənsubiyyət şəkilçisi "sı" ixtisara düşüb. Prinsipcə sözün kökünü "qayd" ("qeyd") kimi götürəndə, elə burdakı "ı" səsi də mənsubiyyət bildirən şəkilçini əvəz edir.**

Deməli, iki dəfə "ı" və "sı" mənsubiyyət şəkilçisinin dalbadal gəlməməsi üçün şifahi nitq qanunauyğun şəkildə bunlardan birini ixtisar edib. Bir sözlə, "başı qaydı" ifadəsi "başının qayğısı" ("başının qaydısı") mənasında düşünülməlidir. "D" və "ğ" səs əvəzlənmələri də burda özünü göstərir. "Qayd" sözü həm dilimizdə işlək olan "qeyd" ifadəsinin "qayğı" mənasındakı adekvatı kimi düşünülə bilər, həm də ki, "qayğı" sözünün fonetik transformasiyası kimi anlaşıla bilər.

Beləliklə, "filankəsi görüm başı qaydına qalsın" qarğışı "filankəsi görüm başının qayğısına (əndişəsinə, əzabına) qalsın" mənasını verir. Qaraqalpak şairi Hacıniyazın "Qayğılı iş bir gün başına gələr" misrasında da şair sonradan xəbərdaredici mesaj verib deyir ki, "namərdlərdən kənar dur demişlər", yəni "namərdlərdən kənar durmasan, başına qayğılı iş (problemli iş) gələr", - demək istəyir şair Hacıniyaz Kosıbay oğlu. Göründüyü kimi, burada da namərd insandan adama xətər toxunar və adamın başına qayğılı iş gələr, yuxarıdakı qarğışımıza müqabil şəkildə desək, "başı qaydına qalmalı olarsan". - başın qayğı, əndişə, müsibət çəkər. Elə burdaca qeyd edim ki, İraq türkmanlarının dilində, habelə "Arzu-Qəmbər" dastanında da "qayğı" sözü qayd (kayd) və qeyd formasında işlədilir. Dastanın Kərkük və Tuzxurmatı variantlarından müvafiq yerlərə diqqət kəsilsək, dediyimizi təsdiq edərik:

**"K\v (Kərkük variantı) -** "Bını kim bəzətsin? Dediler valla biz bezetmerix; Kamber kapıda durıp, sağ aşıktı bed-döesi bire birdi... O dedi valla bezetmerix, bi dedi valla bezetmerıx", Dediler çara?. Kamber dedi em-arvadı bı da bir şey degi, Arzını mene ver men bezedirem özini! Yoxsa indi ölene kimin bı kapıda durram, her kim bezetse öizini, bir beddöe basaram, derdine boyaram öizini.. Arvatlar dediler koy bezetsin, ne var, canım emmisi kızıdı, uxı bal degi barmaxlasın!. Dedi boynı kırığıv ge bezet.. Dedi beli bele bezedirem şertlendi, onı taxım ettixçe bir öpiş allam!. Dediler kaydi yoxtı al!."

**T/v (Tuzhurmatu variantı) -** "Arvatlar birbirlerine baxıllar, herkeş qorxırı Arzı'nı bezetsin. Her kime diyiller, kimse yaxın düşmiri. Qamber geldi 'emmisi arvadının yanına, dedi: 'emmiarvadı men Arzı'nı bezedirem. Mennen ğayrili her kim Arzı'nı bezetse burmağları tölükü öllü. Arvatlar dediler, qoy bezetsin, ne var munda, Qamber 'emmısı oğlıdı.

Arzı'nın nenesi dedi ge Qamber ge, burda da bizi utantırma. Qamber dedi men bir şarttan bezedirem, bezetixçe bir öpüş alam. Dediler qeydi yoxtı.

Qamber başladı Arzı'nı bezetmeğe, üst espabını giritmeğe. Onca elinnen, gözünnen, başınnan öpti toxtaştı. Arzı'nın bezegini bitirdi".

Göründüyü kimi, dastanın hər iki variantında gəlini - Arzunu bəzəyən Qəmbər ona hər bəzək vurduqca ondan bir öpüş alacağı şərtini söyləyir. Cavabında isə ona "dedilər kaydı (qeydi) yoxdu, öpüş al". Deməli, burdakı kaydı (qeydi) ifadəsi "problem" mənasında olub, "problemi yoxdu" anlamını özlüyündə daşıyır.

Yəni bir kəsin başına problem - əngəl, oyun açılması o şəxsin çətinliklər - qayğılar, əndişələr içində qalması deməkdir. Burdan da bir daha o məntiq alınır ki, kiminsə "başı qaydına" - başının qayğısına qalması arzulanırsa, həmin adama problem - qayğı içində qalması kimi bəd niyyət - qarğış arzulanır. Həmçinin xalq düşüncəsində "kiminsə qayğısına (qeydinə) qalmaq" ifadəsi də var ki, bu da o kəsin zəhmətini çəkmək, əziyyətini öz üstünə götürmək anlamına gəlir.

**Şakir Albalıyev**

## Ermənistan ordusunun Azərbaycanın mülki vətəndaşlarını qətlə yetirmələri ilə bağlı ifadələr elan olunub

Elan olunan ifadəyə əsasən, zərərçəkmiş Şakir Albalıyev bildirib ki, o, 1992-ci ilin iyun ayında hərbi xidmətə çağırılıb. Öz evi və əmlakı Cəbrayıl rayonunun Dağ Tumas kəndində yerləşib. 1993-cü il avqustun 25-də Ermənistan silahlı qüvvələri onun xidmət etdiyi batalyonu mühasirəyə alaraq güclü atəşə tutublar. Həmin ərəfədə Ermənistan silahlı qüvvələri Cəbrayıl rayonunun bir sıra kəndlərini, o cümlədən yaşadığı Dağ Tumas kəndini və valideynlərinin yaşadığı Pirəsəd kəndini işğal edərək yandırıblar.

**"APA. AZ"**

# "ABBAS VƏ GÜLGƏZ" - *XALQ AŞIĞININ HAQQ AŞİQLİYİ*

**Azərbaycan məhəbbət dastanları əsas etibarilə butalı gənclərin sevgi macərası üstündə qurulur. Butaalan aşiqlər haqq vergili insanlar kimi təsvir və tərənnüm olunur. Qopuz, saz aləti də xalqımızın təfəkküründə müqəddəs sayılıb. Bu səbəbdən də qopuzun - sazın dilini bilən - yəni ustalıqla, şövqlə sazı dilləndirə bilən aşıqlıq sənəti də yüksək qiymətləndirilib və bu baxımdan ustad aşıqlar da xalqımızın təfəkküründə haqq aşığı səviyyəsində uca tutulub. Aşıq Qurbani, Aşıq Abbas kimi kamil aşıqlarımız haqq aşığı hesab edildikləri kimi, həmin aşıqların adlarına-ünvanlarına xalqımız tərəfindən ölməz mənəvi abidə timsallı dastanlar bağlanılıb. Belə dastanlardan biri də Tufarqanlı Aşıq Abbasın dilindən qoşulan "Abbas və Gülgəz" dastanıdır. Xalq sənətkarı - xalq aşığı olan Aşıq Abbas Tufarqanlı xalqımız tərəfindən haqq aşığı kimi sevilmiş, haqq aşiqi kimi şəninə dastan bağlanmış, öyülmüş, tərənnüm edilmişdir. Ənənəvi olaraq üç ustadnamə verildikdən sonra dastanda birbaşa mövzuya keçid edilir: "Dostlar, sizə haradan, kimdən xəbər verim, Tifarqanda Xoca Mayıl adlı bir adam var idi. Xoca Mayılın Abbas adlı çox ağıllı bir oğlu var idi.**

Bir gün Xoca Mayıl bərk xəstələndi, arvadını yanına çağırıb, vəsiyyət elədi:

- Oğlum Abbas hankı sənəti xoşlasa, qoyarsan o sənəti öyrənər.

Elə həmin gün Xoca Mayıl canını tapşırdı sizə. Xoca Mayılı dəfn-kəfn eləyib, basdırdılar. Yeddi gün, yeddi gecə yas saxladıqdan sonra anası Abbası çıxartdı şəhərə. hara apardısa, Abbas heç bir sənəti bəyənmədi. Ta ki, gəlib mədrəsəyə çıxdılar. Abbas mədrəsəni gördü, dedi:

- Ana, mən oxumaq istəyirəm.

Anası çox sevindi, onu mollanın yanına gətirdi. Molla arvada dedi:

- Nə qulluq?

Arvad dedi:

- Bu uşağı gətirmişəm, oxudasan.

Molla dedi:

- Yaxşı, nə deyirəm, oxudaram.

Arvad Abbası mollanın yanında qoydu. Abbas başladı oxumağa.

Bir gün molla başqa yerə getmişdi. Abbas da uşaqları başına yığmışdı, əlini qulağına verib şikəstə deyirdi. Molla qayıdanda onun səsini eşitdi, gizlindən baxıb gördü ki, oxuyan Abbasdı. Molla içəri girib, Abbasın ayağını fələqqəyə saldı. Ayaqlarına o ki var idi, o qədər döydü ki, ayaqlarının bir qabıq dərisi getdi.

Abbas ağlaya-ağlaya evlərinə gəlib anasına dedi:

- Mən ta oxumağa getməyəcəyəm. molla məni fələqqəyə salıb döydü.

Anası nə qədər cəzə-fəzə elədisə, Abbas oxumağa getmədi" (s.126).

Dastanda Xoca Mayılın oğlu Abbasın çox ağıllı bir uşaq olduğu nəzərə çatdırılır və atası öldükdən sonra anasının onu öz istəyi ilə molla yanına oxumağa qoyduğu nəql olunur. Lakin gördüyümüz kimi, Abbas təkcə Quran oxumaqla kifayətlənmədiyindən, aşıq kimi oxumaq istedadı olduğundan, necə deyərlər, o, bu bəndəbərəyə sığmadığından, molla yanına getməkdən imtina edir. Ona görə ki, Abbasın taleyi haqq vergisi ilə bağlı idi - saz aşığı və haqq aşiqi olmaq kimi ilahi istedad onun tale, alın yazısı idi. Odur ki, dastanın mabədində oxuyuruq: "Hacı Seyid oğlu Saqi Abbasın dostu idi. Bir gün Abbas Saqi ilə bağa gəzməyə getmişdi. Bir qədər gəzəndən sonra hərəsi uzanıb bir ağacın dibində yatdı. Saqi bir vaxt yataqdan qalxıb gördü axşamdı, amma Abbas yuxudan hələ ayılmayıb. Nə qədər elədi, Abbası ayılda bilmədi. Tez gedib Abbasın anasına, bacısına, qonşularına xəbər elədi. Səs düşdü, hamı tökülüb gəldi. Nə qədər elədilər Abbası oyada bilmədilər. onu elə yuxulu götürüb evə gətirdilər. Bütün rəmmallar, qarılar yığıldı, bunu hərə bir yerə yozdu. Kimi dedi dəli olub, kimi dedi başına hava gəlib. Bir qarı onun nəbzini tutub dedi:

- O, eşq yuxusundadı, sabah ayılacaq.

Sabah açılan kimi Abbas yuxusundan ayılıb dedi:

- Ana, bu camaat niyə yığılıb?

Anası əhvalatı ona söyləyib dedi:

- Oğul, dərdin nədi?

Abbas dedi:

- Bir ucu çömçə, bir ucu nimçə gətirin, dərdimi deyim. Gedib Abbasa bir saz gətirdilər. Abbas sazı sinəsinə basıb, görək nə dedi:

Ruzi-əl-məhşərdə mövlam eşqinə,
İçmişəm kövsərdən bir cami-ləziz.
İsgəndər axtardı, tapıb içmədi,
Xızır içdi oldu cəvanü əziz"

***(s.127).***

Bu parçada bir məqama diqqət yönəltmək istərdim: Abbasın dostu kimi təqdim olunan Hacı Seyid oğlu Saqi ifadəsinə. Öncə deyim ki, xalqımızın təfəkkür tərzinə uyğun olaraq ata adı şəxsin özünün adından irəlidə çəkilir. Yəni Saqi adlı şəxsin adı - Abbasın dostu Saqinin adı təqdim olunarkən, əvvəlcə Saqinin kimin oğlu olduğu göstərilib. Bu da xalqımızın böyüyə-ataya hörmət prinsipinə riayət etməsi məntiqindən irəli gəlir. Yəni Saqi Hacı Seyid oğlu yox, Hacı Seyid oğlu Saqi!Başqa sözlə, Hacı Seyidin oğlu Saqi! Bu məsələnin Azərbaycan xalqının yaratdığı şifahi sənət abidəsində (dastanda) bu cür ifadəsini tapması tamamilə təbii haldır və bir daha dastanın Azərbaycan xalqının düzüb-qoşduğu epik sənət nümunəsi olduğunu bu şifahi deyim tərzi də təsdiqləyir. İkinci diqqət yönəltməli olduğumuz məqam isə buradakı xüsusi ismin - şəxs adının özlüyündə daşıdığı semantik anlamla bağlıdır. Müasir dövrdən fərqli olaraq, xalqımız əski zamanlarda adla şəxs(iyyət) arasındakı harmoniyanın həmişə uyğun olmasına diqqətdə saxlayıb. Yəni müasir dövrdəki kimi, öddəkürək (yəni heç nədən ödün-öfkəsin qusan qorxağa) adama Şiraslan, yaxud Qorxmaz və s. kimi adlar qoymayıb. Əvvəllər ad ilə insanın şəxsi iradəsi, təbiəti arasında bir qanunauyğunluq gözlənilib. Bu nöqteyi-nəzərdən də gələcək haqq aşığı və haqq aşiqi olacaq Abbasın dostunun adının Saqi, eləcə də atasının adının Hacı Seyid olması da təsadüfi deyil. Məlumdur ki, Hacı müqəddəs Həcc ziyarətçisi, Seyid isə müqəddəs şəxs mənasını ifadə edir. Hacı Seyidin oğlunun adı isə Saqidir. Saqi isə şərab (burada əslində şərbət) paylayan deməkdir.

Ancaq Saqinin atasının adının Hacı Seyid olduğunu düşündükdə, onda burdakı Saqi adının da eşq şərabı paylayan saqi anlamı verdiyini yəqinləşdirərik. Necə ki, biz bunun dastanda birbaşa olmasa da, dolayısı ilə təsdiqini görürük. Belə ki, Abbasa eşq yuxusu onun Saqi ilə (Hacı Seyidin oğlu Saqi ilə) gəzəndən sonra bir ağacın dibində yatmasından sonra gəlir: "içmişəm kövsərdən bir cami-ləziz" - Abbasın dili ilə dastanda belə söylənilir.

Bu içki dastanda həm də "İsgəndərin axtardığı, tapıb içmədiyi", həmçinin "Xızırın içib cavanü-əziz" olduğu eşq şərbəti kimi də təqdim olunur. Burada metaforik olaraq Xızırın cavan, ölməz, əbədiyaşar olması həm də onun eşq badəsi içməsi ilə əlaqələndirilir. Çünki 1999-cu ildə mən bir şeirimdə "sevgidən su içən ürək əbədilik cavan qalar" deyiim kimi, sevgidən-eşqdən su içənlər, başqa sözlə, dünyaya məhəbbətlə, sevgi ilə yanaşanlar həmişəcavan olar, qocalmazlar.

Əlbəttə, bu, epos vasitəsilə, epik nəsrin dili ilə xalqın öz sənətkarına - haqq aşığına haqq aşiqliyi kimi ölməzlik verməsinin, haqq aşığının, haqq aşiqinin - sənətin və sənətkarın ölməzliyi ideyasının dastan mətnindəki təzahürüdür. Qəhrəmanlıq dastanımız olan "Kitabi-Dədə Qorqud"da əlində qopuz olan Dədə Qorqud ölməzliyi məhəbbət dastanımız olan "Abbas və Gülgəz"də də zəhər quyusuna salınanda da ölməyən Aşıq Abbas ölməzliyi - müqəddəsliyi ilə eyni simvolikaya əsaslanır. Elə bu kimi paralellər də xalqımızın monolit həyat tərzinin, sabit, dəyişməz həyat fəlsəfəsinin təcəssümüdür. Yəni hər iki dastanın vahid dünyagörüşdən qaynaqlandığının təsdiqidir. Heç təsadüfi deyildir ki, görkəmli folklorşünasımız Məmmədhüseyn Təhmasib dastanlardan söz açarkən, bu incə məqama da toxunur:

"Erkən orta çağlarda sufi-dərviş sisteminin, bir qədər sonra isə bu sistem daxilində aşıq sənətinin meydana gəlməsi şifahi epik ənənənin tarixi-siyasi şəraitə uyğun olan yeni bir biçimdə ortaya çıxması imkanını yaratdı. İslam öncəsinin düşüncə və yaşayış şərtlərini ifadə edən ozan oğuznaməçiliyi yeni tarixi-siyasi şərait və mühitin tələblərinə uyğun olaraq epik ənənəni aşıq dastançılığına təhvil verdi. Yürüş və vuruş təlqin edən ozan oğuznaməçiliyinin yerinə gələn aşıq dastançılığı epos təfəkküründə fəlsəfi-ürfani və mənəvi-estetik istiqamətlərə işıq salmağı üstün tutur. Epik ənənəni ozan oğuznaməçiliyindən qəbul edən aşıq dastançılığı ideya-estetik axarlarda bir çox yeniliklər etməklə bərabər, mövcud folklor ənənəsinin təhkiyə prinsiplərini, poetik üslubi maneralarını, bədii nüfuzetmə imkanlarını, təsvir və ifadə üsullarını, nəsr-nəzm növbələşməsini və s. yaşatmaqda davam etdi. Ozan epik mətni ilə, məsələn, "Kitabi-Dədə Qorqud" boyları ilə aşıq epik mətni ("Aşıq Qərib", "Qurbani", "Koroğlu", "Abbas-Gülgəz" v s.) arasında da bu baxımdan tutuşdurma aparıldıqda təhiyə və təsvir üsulları arasında fərqlənmədən daha çox yaxınlaşma, bir-birinə bənzəmə müşahidə edilməsi təbiidir" (s.224-225).

Bəli, hər iki dastan tarixin ayrı-ayrı mərhələlərində yaransa da, təfəkkür tərzi, dünyaya baxış bucağı vahid bir qaynaqdan bəhrələndiyindən, mahiyyət, ideya istiqaməti demək olar ki, vahid müstəvidə qərarlaşır. Necə ki, hər hansı bir sənətkarın, yazıçının, ya şairin yaradıcılığında tekstoloji üslub, yaradıcılıq dəst-xətti eyni olaraq qalmaqda və həmin yazarın özünəməxsus fərdi üslubunu müəyyənləşdirmədədir, eləcə də xalq yaradıcılığı nümunələri zamanından, formasından, janr əlvanlığından asılı olmayaraq xalqın ruhunu, dünyabaxışını özündə əks etdirmədə, yaşatmadadır. Folklorda onu yaradan xalqın kimliyi aydın şəkildə görünür.

**Dastanda Abbas anasına deyir:**

*Ağalar ağası, ağalar xası,*
*Ana, mövlam mənə buta veribdi.*
*Düldülün sahibi, Qəmbər ağası,*
*Ana, mövlam mənə buta veribdi.*

**Abbas ona buta verildiyini anasına decək, anası ona alqış edib, xeyir-dua verir:**

*Alqinən duamı, duasız olma!*
*Göydəki quş kimi yuvasız olma!...*

Bu məqam da xalqımızın milli psixologiyasını əks etdirir. Belə ki, yuxuda ona buta verildiyini deyən Abbasa anası o saat xeyirdua verir: "alqinən duamı, duasız olma!". Bu, o deməkdir ki, mövlasının - Allahın, "Düldülün sahibi"nin - İslam dünyasının müqəddəslərindən sayılan Həzrəti Əlinin yuxu vasitəsilə Abbasa buta verdiyini eşidən anası xalq ənənəsinə və Xəlqi düşüncəyə, Xalq adətinə uyğun olaraq xeyir-dua verir, "alqinən duamı" deyir.

"Göydəki quş kimi yuvasız olma!" misrası da xəlqi duyumu əks etdirir; yəni evlənən (buta alan) insan artıq evli sayılır, evli olmaq - evlənmək isə evi-eşiyi, yurdu-yuvası olmaq deməkdir, ev-ailəuşaq sahibi olmaq deməkdir. Ona görə də Abbasa buta verildiyini eşidən anası ona xeyir-dua verib, "yuvasız olmamağı" - yurd-yuva qurub ev-eşik (ailə-uşaq) sahibi olmağı arzulayır. Ona görə də ailəli adama "evli" - "ev"li - "yuva"lı, subay adama isə "evli" - "ev"li ("yuva"lı) deyil" deyirik.

Gördüyümüz kimi, adi sözün içində də məntiq yuvası hörür xalqımız. Söz içindən söz - məntiq çıxardır xalqımız.

**Mənim yarım Məmməd bəyin bacısı,**
**Ana, mövlam mənə buta veribdi, -**

deyəndə isə anası "Qonşumuzdakı Məhəmməd bəyin bacısıdırsa, bu saat gedim elçiliyə. Ümidim var ki, Məhəmməd bəy bacısını sənə versin. Ancaq uzaq yer olmasın ha..." deyir.

**Burda da bir incə xəlqi çalar gizlənib. Məlumdur ki, islam hümməti olaraq Məhəmməd peyğəmbərin şərəfinə bu ad bizdə çoxluq təşkil edir. Buna görə də "Mənim butam - yarım Məmməd bəyin bacısı" deyəndə, Abbasın anası qonşusu Məhəmməd bəyin bacısı olduğunu düşünür. Ancaq "Abbas deyər yarın adı Pəridi" cavabını eşitcək, məsələdən hali olub deyir:**

Ağanın əlindən sən badə içdin,
Alışdın, tutuşdun, odlara düşdün,
Səlbinaz da deyər: oğlumu qoşdum,
Haq-talanı bircə barı bilincə.

Anası çox ağladı - sıtqadı ki, oğlunu qoymasın gedə, Abbas razı olmadı. Axırda çar-naçar razı olub, oğluna xeyir-dua verdi. Abbas yola düşdü, Təbrizə tərəf getməyin binasın qoydu. Abbas getməkdə olsun, sizə kimdən xəbər verim, Xoca Mayılın siğə qardaşından.

Xoca Mayılın Təbrizdə bir siğə qardaşı vardı. Bu adam eşitdi ki, siğə qardaşının oğlu Abbas bərk azarlayıbdı. Xurcuna bir az çörəkdən-zaddan yığıb, Tifarqana tərəf getməyə başladı. Kişi az getdi, üz getdi, yolda Abbasa rast gəldi. Abbas onu tanımadı..." (s.129).

Heç bir ana övladının uzaq ellərə diyarbadıyar olub düşməsinə razı olmadığı kimi, Abbasın anası da bunu istəmirdi. "Ağanın əlindən sən badə içdin" - eşq badəsi içdin deyib, Abbasa ilahidən buta verildiyini bilir, oğluna xeyir-dua verib butasının dalınca Təbriz şəhərinə yola salır.

**(Ardı var)**

**Şakir ƏLİFOĞLU**

# Boksçumuzun uğurları davam edir










Malik İqrar oğlu Həsənov əslən Cəbrayılın Aşağı Maralyan kəndindəndir. Ötən sayımızda onun haqqında ətraflı bəhs açmış, idman aləmindəki uğurları barədə oxucularımıza məlumat vermişdik. Malik boks aləmindəki uğurlar seriyasının davamını gətirməkdədir. 2025-ci ilin dekabrın 6-da Rusiyanın Yuqorsk şəhərində keçirilən dünya çempionatında iştirak etmiş və dünya kubokunun qalibi olmuş, bu şərəfə Dövlət Himnimiz səsləndirilmişdir.

Məlumdur ki, ölkəmizdə idmana dövlət qayğısı həmişə yüksək səviyyədə olmuş, idmançılarımız daim dövlət qayğısı ilə əhatə olunmuşlar. Bunun bir nümunəsini də boksçumuz Malik Həsənova qazandığı parlaq qələbələrə görə ölkə prezidenti cənab İlham Əliyev tərəfindən mənzil hədiyyə edilməsinin timsalında gördük. İnanırıq ki dövlətimizin başçısının bu etimadını idmançımız ləyaqətlə doğruldacaq və idman aləmində yeni-yeni uğurlar əldə edəcəkdir.

Uğurlar olsun, Malik!

**Şakir Əlifoğlu**

# Alim medalla təltif edilib

**Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Mifologiya" şöbəsinin aparıcı elmi işçisi, filologiya elmləri doktoru, dosent Şakir Əlif oğlu Albalıyev "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" medalı ilə təltif edilib.**







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 fevral 2025-ci il tarixli Fərmanı ilə təsis edilmiş medal media sahəsinin inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə təqdim edilir.

2009-cu ildən "Xudafərin" (hazırda "Ulu Xudafərin") qəzetinin baş redaktoru, Azərbaycan Jurnalistlər Birliyi və Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, dosent Şakir Albalıyev 12-dən artıq monoqrafiyanın, çoxsaylı yerli mətbuat yazıları və xarici məqalələrin müəllifidir. O, "Tərəqqi" medalı (2020), "Qızıl qələm" (2009), "Ömər Faiq Nemanzadə" (2010), "Araz" (2010), "Peşəkar jurnalist" (2010), "Vicdanlı qələm" (2015) mükafatları və bir sıra fəxri fərmanlara layiq görülmüşdür.

**Aygün Məmmədova,**
**AJB üzvü, tarix üzrə**
**fəlsəfə doktoru**

## Təbrik edirik!



Filologiya elmləri doktoru, professor Nəriman Fərman oğlu Seyidəliyev uzun illərdir ki, Azərbaycan Milli Elmlər Akademiyasında çalışır. Akademiyanın yaradılmasının 80 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə bir qrup alim yüksək mükafatlarla təltif olundular. Onların arasında həmyerlimiz Nəriman Seyidəliyevin də adı vardır. Ölkə başçısının məlum Sərəncamı ilə o, "Tərəqqi" medalı ilə mükafatlandırılmışdır.

Bu yüksək təltif münasibətilə Nəriman müəllimi təbrik edir, göstərilən etimadı bundan sonra da doğruldaraq yeni-yeni elmi nailiyyətlər qazanmasını arzulayırıq!

**"Ulu Xudafərin"**

**Ürəyim yağsız piltə,**
**Yanar, içimi ütər!**
**Boğullam öz tüstümə,**
**Çölüm içimdən betər!**



# Folklor İnstitutunun alimi filologiya elmləri doktoru dərəcəsinə layiq görülüb



21 noyabr 2025-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun "Mifologiya" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Əlif oğlu Albalıyevə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 31 oktyabr 2025-ci il tarixli qərarı ilə 5719.01 - Folklorşünaslıq ixtisasında filologiya elmləri elm sahəsi üzrə elmlər doktoru elmi dərəcəsi verilmişdir.

Qeyd edək ki, alimin müdafiə etdiyi "Azərbaycan xalq bayramlarının ritual-mifoloji əsasları və etnokulturoloji semantikası" mövzusunda doktorluq dissertasiyası üzrə əsərləri bir sıra yerli nəşrlərdə və xaricdə nəşr edilmişdir.

Bu elmi uğura görə Şakir Albalıyevi təbrik edir, yeni-yeni elmi yaradıcılıq uğurları arzulayırıq!

**Aygün Məmmədova,**
*AJB üzvü, tarix üzrə*
*fəlsəfə doktoru*

## Təbrik edirik!




Cəbrayıl rayon 25 saylı tam orta məktəbin X sinif şagirdi Babayev Elton Alimoğlu Bakı Biznes Universitetində 26.10.2025-ci il tarixində keçirilən Olimpiadada USA-Beynəlxalq ingilis dili olimpiadasında yüksək nəticə göstərərək beynəlxalq dərəcəli sertifikata və qızıl medala layiq görülüb. Şagirdimizi təbrik edirik və uğurlarının davamlı olmasını arzulayırıq.

Qeyd edək ki, məktəblimiz Elton Babayev fevralın 5-də Amerikada keçiriləcək beynəlxalq olimpiadada iştirak hüququ da qazanmışdır. İnanırıq ki, orada da ona bəslənən etimadı doğruldacaq və yüksək uğur qazanacaqdır.

**"Ulu Xudafərin"**

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Ulu Xudafərin" qəzeti

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı **Kamal İltifat oğlu Həsənova,** anası

**Quliyeva Tərcə Bahadır qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Ulu Xudafərin" qəzeti

**Əliyeva Göyçək Nəsrəddin qızı, Quluyeva Samaya Xurşud qızı, Məhərrəmova Ayxanım İldırım qızı, Quliyev Kamil Famil oğlu, Quliyev İsmayıl Şavahat oğlu, Quliyeva Gözəl Sabir qızı, Səfərov Əli Abdulkərim oğlu, Cəfərov Qurban Cəmil oğlu, Allahverdiyev Zeynalabdin Həmid oğlu və Mustafayev Mövlanverdi Məhəmməd oğlunun**

vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Təsisçi və baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində qeydə alınıb. Şəhadətnamə №B71A40FEB25945
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 3103823792**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ83AIIB410400C9445674829103**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82; (010) 712-36-97

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Ulu Xudafərin" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 102**
**Tiraj: 2000**